

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yaracaq



10

SƏS

№ 017 (6942)

30 yanvar 2024-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan-Türkiyə: strateji müttəfiqlik, sarsılmaz qardaşlıq!



2

*Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan əlaqələri uğurla davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib.*

# ABŞ: seçkilərə, yoxsa vətəndaş müharibəsinə?



4

*Əvvəllər ABŞ-da vətəndaş müharibəsinin baş verəcəyi, bu ölkənin parçalanacağı barədə fikirlərə az əhəmiyyət verilirdi. Bu gün isə bu barədə daha çox danışılır. Uzun illər müharibələri ştatlardan kənarda saxlamağı bacaran, dünyanın müxtəlif qitələrində ən qaynar nöqtələrdə gedən savaşlarda bu və ya digər şəkildə iştirak edən ABŞ bu dəfə vətəndaş müharibəsinə hamilədir.*

## YAP Mərkəzi Aparatında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev ilə görüş keçirilib



3

## Vətən haradan başlayır?



15

## "Azərbaycan AŞPA ilə bağlı düzgün qərar qəbul edib"



14

## Dağıdıcı müxalifətin seçki təxribatı ola bilər

14



Azərbaycan daha da inkişaf etdikcə və qələbələri artdıqca xarici məkrli qüvvələrin də narahatlığı artmaqdadır. Çünki bir müsəlman-türk dövlətinin güclənməsi onlara dünya siyasətində məkrli planlarının həyata keçirilməsinə ciddi problem yaradacaq.

## Alimentin miqdarı necə müəyyən olunur?



16

# Azərbaycan-Türkiyə: strateji müttəfiqlik, sarsılmaz qardaşlıq!





***Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan əlaqələri uğurla davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli layihələrin reallaşması həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına təsirini göstərir.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etməsi bu əlaqələrin daha bir təzahürüdür.

Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub və iki ölkə həmişə bir-birinin sevincli, kədərli günlərində biri digərinin yanında olub. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Azərbaycan və Türkiyə arasındakı əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün zamanında söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarında dəqiq ifadə olunub.

### "BİR MİLLƏT, İKİ DÖVLƏT" PRİNSİPİ

Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda Cənab Prezidentimiz İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında ən yüksək səviyyədə davam etməkdədir. Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyini və bunun bir örnək olduğunu vurğulayıb. Qonaq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rol oynadığını bildirib.

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirib.

### SUVERENLİYİMİZ TAM BƏRPA OLUNDU

Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Ümumilikdə tarixi Zəfərimiz bu qardaşlığın dünyaya təqdimatında öz sözünü dedi.

Söhbət zamanı ötən il sentyabrın 19-20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulanıb. Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını diqqətə çatdırıb. Ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd edib və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirib.

### REGİONDA SABİTLİYİN VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİNATI

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olunub. Bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırılıb. Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Hər iki ölkənin silahlı qüvvələri tərəfindən birgə keçirilən hərbi təlimlərin əhəmiyyəti xüsusilə qeyd edilib. Əlbəttə ki, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması Azərbaycan-Türkiyə münasibətlərində yeni bir dövrün başlanğıcını qoymuş oldu. Qardaş dövlətlərin Şuşa Bəyannaməsini imzalamaları müttəfiqlik münasibətlərinin göstəricisidir. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq, Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi kimi məsələlər öz əksini tapıb. Tarixi, strateji önəmi, hüquqi, hərbi və siyasi baxımdan xüsusilə böyük əhəmiyyətə malik olan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bir daha nümayiş etdirir. Azərbaycan və Türkiyə regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini davam etdirilməsi baxımından yeni imkanlar açır. Şuşa Bəyannaməsi iki ölkə arasında imzalanmış olsa da, bölgə üçün də böyük əhəmiyyət daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə dövlətlərarası gələcək iş birliyinin istiqamətini göstərir.

### ORTAQ KÖKLƏRDƏN VƏ DƏYƏRLƏRDƏN GÜC ALAN DOSTLUQ

Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr reallaşıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələr bu baxımdan təqdirəlayiqdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib.

Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan müstəqil siyasət yürüdə bilən ölkədir. Dövlət siyasətinin də mütləq prioritetləri Azərbaycan xalqının və dövlətinin milli maraqlarının müdafiə olunması, eyni zamanda ölkəmizin müstəqil siyasət aparmasıdır.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır.

***Zümrüd BAYRAMOVA***

# YAP Mərkəzi Aparatında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev ilə görüş keçirilib





***Yanvarın 27-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayevin anadan olmasının 55-ci ildönümü münasibətilə görüş keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Alqış Musayevi doğum günü münasibətilə təbrik edib.***

Tahir Budaqov bildirib ki, Alqış Musayev hər zaman Ümummilli Lider Heydər Əliyevin ideyalarının və zəngin dövlətçilik irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği istiqamətində səmərəli fəaliyyəti ilə fərqlənib. O, uzun müddət "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü və II çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi ölkənin ictimai-siyasi həyatında fəal iştirak edib və öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Diqqətə çatdırılıb ki, A.Musayev bu gün də "Yeni Azərbaycan" qəzetinin baş redaktoru və Mətbuat Şurasının İdarə Heyətinin üzvü kimi Azərbaycan jurnalistikasının inkişafına, sağlam ictimai rəyin formalaşmasına, milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasına töhfələr verir: "Məhsuldar fəaliyyətiniz daim yüksək qiymətləndirilib. Bir sıra mükafatlara layiq görülməyiniz, xüsusilə də Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2005-ci ildə "Tərəqqi" medalı, 2022-ci ildə isə "Əməkdar jurnalist" fəxri adı ilə təltif olunmağınız əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".



Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Alqış Musayev Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin yorulmaz təbliğatçısı olmaqdan qürur duyduğunu bildirib. O, bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.





# "Ermənistanın baş nazirinin açıqlaması bölgənin gələcək inkişafına və tərəqqisinə maneçilikdir"

"Ermənistanın baş nazirinin açıqlaması Azərbaycanla Ermənistan arasında Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli Saziş layihəsi üzrə prosesdən fikir yayındırmaq məqsədi daşıyır." Bu fikirləri Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş nazirinin "ordu" günündə səsləndirdiyi fikirlərə dair yerli medianın sualına cavabında bildirib.

O qeyd edib ki, Azərbaycan tərəfinin sözügedən saziş layihəsi üzrə müzakirələr başlanandan etibarən Ermənistan tərəfinin öz Konstitusiyasında, qanunvericilik orqanının bir sıra qərarlarında, eləcə də 44 günlük Vətən müharibəsindən sonra müxtəlif beynəlxalq məhkəmələrə müraciətlərində, rəsmi yazışmalarında və beynəlxalq təşkilatlar çərçivəsində yaydıqları məktublarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialara son qoymağa çağırış etməsinə baxmayaraq, indiyə qədər bu istiqamətdə Ermənistan tərəfindən hər hansı bir əməli addım atılmayıb. Bununla əlaqədar, Ermənistan tərəfinin bu istiqamətdə tədbirlər görmək əvəzinə, heç bir praktiki əhəmiyyəti olmayan təkliflər səsləndirməsi anlaşılmazlıq yaradır və qəbuledilməzdir.

Ermənistanın 30 il ərzində məhz tərəf olduğu ərazi bütövlüyümüzün və suverenliyimizin tanındığı beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəliklərini kobud şəkildə pozduğu, Azərbaycana qarşı təcavüz törətdiyi, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlətdiyi hər kəsə məlumdur.

"Qeyd edilənləri, habelə baş nazir Paşinyanın da bildirdiyi kimi, ölkəsinin ciddi hərbiləşmə siyasəti apardığını, son illərdə bir neçə milyard dollarlıq silah tədarükü müqavilələri imzaladığını, hərbi sənayeni inkişaf etdirdiyini nəzərə alaraq, Ermənistanın sülh prosesinə ciddi yanaşdığını iddia etməsi siyasi manipulyasiyadır. Bu kimi qərəzli bəyanatlar bölgənin beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə maneçilikdir.

Azərbaycan öz növbəsində sülh və quruculuq səylərini davam etdirəcək və Ermənistandan da sözdə deyil, əməldə adekvat addımların atılmasını gözləyir", - deyə Ayxan Hacızadə vurğulayıb.

Qeyd edək ki, yanvarın 28-də Ermənistanın baş naziri Nikol Paşinyan "ordu" günü ilə əlaqədar çıxışı zamanı, ölkəmizə qarşılıqlı silahlara nəzarət mexanizmi, habelə hücum etməmək haqqında pakt imzalamağı təklif etdiklərini bildirib.

# Özbəkistan mediası Azərbaycandakı prezident seçkiləri barədə məqalə dərc edib

Jurnalistlər Fuad Hüseynzadə və Ədil Ədilzadənin Özbəkistanın nüfuzlu mediasında Azərbaycanda fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə bağlı məqaləsi dərc edilib. "Secki-2024.az" saytında yer alan məlumatda deyilir ki, məqalə "Azərbaycan prezident seçkilərinə hazırlaşır" və "Zəfər seçkiləri" sərlövhələri ilə "Tnews.uz", "Xabar.uz" və "Muzaffar.uz" saytlarında yayımlanıb. Jurnalistlər seçki ilə bağlı "Özbəkistan24" radiosunda da çıxışlar ediblər.

Məqalə və radio çıxışlarında qarşıdan gələn prezident seçkiləri haqqında geniş məlumat verilib. Qeyd edilib ki, prezident seçkilərində mübarizə aparacaq 7 namizədin təşviqat kampaniyasına qanunvericiliyə uyğun şərait yaradılıb.

Məqalədə ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan vətəndaşların seçki hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən müvafiq tədbirlər görüldüyü qeyd edilib. Bildirilib ki, Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş məlumatlar əsasında seçkilərin ölkə hüdudlarından kənarda təşkili məqsədilə ümumilikdə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

Məqalədə işğaldan azad edilmiş ərazilərdə seçkilərə hazırlıq prosesindən də bəhs edilib, müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkinin bütün ölkə ərazisində keçiriləcəyi xüsusi olaraq vurğulanıb. "Qalib Azərbaycan" Könüllü Təbliğat Qrupu yaradılıb.





# ABŞ: seçkilərə, yoxsa vətəndaş müharibəsinə?

***Əvvəllər ABŞ-da vətəndaş müharibəsinin baş verəcəyi, bu ölkənin parçalanacağı barədə fikirlərə az əhəmiyyət verilirdi. Bu gün isə bu barədə daha çox danışılır. Uzun illər müharibələri ştatlardan kənarda saxlamağı bacaran, dünyanın müxtəlif qitələrində ən qaynar nöqtələrdə gedən savaşlarda bu və ya digər şəkildə iştirak edən ABŞ bu dəfə vətəndaş müharibəsinə hamilədir. Əlbəttə, bunu indiki zamanda mümkünsüz hesab edənlər də tapılar, amma reallıq budur ki, bütün qarşıdurmaların fövqündə dayanan Tramp-Bayden rəqabəti ölkəni xaosa sürükləyir. İndiki president Baydenin idarəçilik üsulu vətəndaş qarşıdurmasını qaçılmaz edib, mərkəzdənqaçma meyillərini gücləndirib.***

Seçkiöncəsi xəbərlər sırasında Trampa qarşı təzyiqlər çoxluq təşkil edir. Məsələ burasındadır ki, əvvəllər müstəqil fəaliyyət göstərən ədliyyə sistemi Baydenin qələmi ilə idarə olunduğundan bəzi ştatların məhkəmələri Trampın təbliğat maşınını durdurmaq üçün bütün vasitələrdən istifadə edirlər. Hətta eks-prezidentin seçkilərdə namizəd kimi iştirakını qadağan edən qərarlar verən məhkəmələr barədə xəbərlər də gəlməkdədir. Trampın çoxsaylı cinayət işləri, həbs təhlükəsi və s. barədə məlumatların dövriyyəyə buraxılması da onun hakimiyyətə yolunu kəsmək üçün demokratların bütün mümkün vasitələrdən, o cümlədən seçki saxtakarlığından istifadəyə hazır olduğunu göstərir.

ABŞ tarixinin ən qütbləşmiş dövrünü yaşayır. Vəziyyət hər gün getdikcə pisləşir. Düz 159 il əvvəl, yəni vətəndaş müharibəsi zamanı ABŞ belə qütbləşmə böhranı yaşamışdı. Problemin kökündə isə Demokratlar və Respublikaçılar arasında amansız mübarizə dayanır. Hər 4 ildən bir, yəni prezident seçkiləri öncəsi bu mübarizə daha radikal hal alıb. Parçalanma qaçılmazdır, bir tərəfdən eşşəklərlə (demokratlar) fillər (respublikaçılar) dərin qarşıdurma var, digər tərəfdən isə Amerikadakı daxili müharibə ənənəsinin olmasıdır. 1861-65-ci illərdə ABŞ-da şimalla (kapitalistlər) cənub (quldarlar) arasında müharibə nəzərdə tutulur. Bu gün Amerikada iki partiyanın rəqabətindən bezən təbəqə də formalaşıb. Onlar özlərinə "Artıq birlikdə yaşaya bilmərik" deyirlər. Onlar iki partiya arasında baş verəvək müharibənin nəticəsini gözləmədən bəzi ştatların müstəqilliyinə çalışırlar. Belə ştatlar ABŞ-ın özəyini təşkil edir də deyə bilərik. Texas, Kaliforniya, Nyu-York, Florida kimi subyektlər ABŞ-dan qoparlarsa nələrin yaşanacağını sözlə ifadə etmək çətindir. Ştatların parçalanması dünyada yeni düzənin formalaşacağını iddia etmək də mümkün deyil.

ABŞ-da seçkilər rəngarəng şoularla, debatlar, paradlar, əl sıxma ilə müşaiyyət olunur. Lakin Amerika demokratiyası "bir nəfər, bir səs" prinsipini tanımır. Amerikalıların yalnız 28%-i ABŞ demokratiyasının işindən razıdır. Qurucu atalar aristokratik respublikanın Konstitusiyasını qəbul ediblər, burada prezidenti vətəndaşlar deyil, seçicilər seçir, onların sayı müəyyən bir ştatdan olan senatorların və Nümayəndələr Palatasının üzvlərinin sayı ilə müəyyən edilir. Hazırda onların ümumi sayı 535 nəfərdir. Seçki kampaniyası bir neçə mərhələdə baş verir. Birinci - bu və ya digər namizədi dəstəkləyən nümayəndələr partiya qurultayına seçilir. Beləliklə, Respublikaçılar Partiyasının qurultayında 2499 nümayəndə iştirak edir. Prezidentliyə və vitse-prezidentliyə namizədləri təsdiq edən qurultaylar respublikaçılar üçün iyulun 18-19-da, demokratlar üçün isə 19-22 avqustda keçiriləcək. Gərgin seçki kampaniyası noyabrın 5-də seçki məntəqələrində və ya poçt vasitəsilə səsvermə ilə başa çatır.



## 2024-cü ilin xüsusiyyətləri

Amerika cəmiyyətində parçalanma dərinləşir. Partiyalar arasında fikir ayrılıqları güclənir, dərin siyasi qütbləşmə baş verir. Demokratlar bu gün ilk növbədə etnik, irqi, dini və cinsi azlıqlara arxalanır. 2020-ci illə müqayisədə bu icmaların səsvermə hüququna malik üzvlərinin sayı 7 milyon nəfərdən çox artaraq bütün seçicilərin təxminən 35%-ni təşkil edib. İlk dəfə olaraq ispanlar 15%-lə azlıqlar arasında, 14%-lə qaradərililəri qabaqlayıblar. Lakin asiyalıların sayı xüsusilə sürətlə artır - 6%. Ateistlərin sayı getdikcə nəzərə çarpır. Ağlar Demokratlar Partiyası tərəfdarlarının yarıdan azını təşkil edir. Respublikaçılar əsasən ağdərili, yevangelistlərdir.

İki partiyanın prioritetləri hansılardır? Demokratlar azlıqların hüquqlarını, eləcə də təhsil, səhiyyə və qadınların abort hüquqlarını qorumağa sadiqdirlər. Respublikaçılar üçün milli borcun azaldılması, inflyasiya, immiqrasiyanın dayandırılması, peyvəndlərdən imtina, abortun qadağan edilməsi prioritetdir. Ağ işçi sinfi demokratlardan uzaqlaşaraq respublikaçılara keçib. Sorğulara görə, ağdərililərin 47%-i Donald Trampı, yalnız 34%-i Cozef Baydeni dəstəkləməyə hazırdır. Respublikaçılar partiyası da etnik və irqi azlıqların nümayəndələrini öz tərəfinə çəkməyə çalışsa da, heç bir uğur əldə edə bilməyib. Xarici siyasət məsələləri adətən seçki kampaniyası zamanı mühüm rol oynamır. Amma bu dəfə müzakirələrdə tez-tez Bayden administrasiyasının payızda təklif etdiyi Ukrayna və İsrailə əlavə yardım paketinin verilməsi məsələsinə toxunulur. Buna Kiyevə böyük miqdarda hərbi və iqtisadi dəstəyin verilməsindən narazı olan bir çox respublikaçılar etiraz edirdi. Onlar qəti şəkildə bu vəsaitlərin Meksika ilə sərhəddə divarın tikintisinə və qeyri-qanuni mühacirlərin qovulmasına xərclənməsini tələb edirlər. Baydenin beynəlxalq məsələlərə yanaşmasını kəskin tənqid edən Tramp iddia edir ki, o, Ukraynada "bir gündə" siyasi nizamlanmaya nail ola bilər. Eyni zamanda, Demokrat Partiyasının özündə də solçu dairələr Vaşinqtonun Fələstinlilərlə İsrailin HƏMAS terrorundan sonra başladığı müharibəyə dəstəyini pisləyir. Senator Bernie Sanders, mütərəqqi insanlar, etnik və dini azlıqların nümayəndələri və gənclər "Fələstinlilərin soyqırımına" qarşıdırlar. Bu, Baydenin reytinqinə mənfi təsir göstərir.

## Kimə səs verməli?

ABŞ-da seçicilər proqramlara deyil, fərdlərə səs verirlər. Hələ 2024-cü il seçki kampaniyası başlamazdan əvvəl iki əsas namizədin Ağ Evin hazırkı sahibi və onun sələfi olduğu aydın oldu. İki prezidentin rəqabəti seçkilərə spesifik xarakter verir. Sonuncu dəfə belə bir hadisə 1912-ci ildə Teodor Ruzvelt öz varisi Uilyam Tafta meydan oxuyanda baş vermişdi, lakin nəticədə Vudro Vilson seçkinin qalibi olmuşdu. Son sorğulara görə, Baydeni demokratların 69%-i, Trampı isə respublikaçıların 72%-i dəstəkləyir. Əslində onların praymerizdə ciddi rəqibləri yoxdur. Tramp yanvarın 15-də Ayova ştatında Respublikaçıların ilkin səslərinin 51%-ni toplayıb. Onun rəqibləri Florida qubernatoru Ron DeSantis 21%, ABŞ-ın BMT-dəki keçmiş səfiri Nikki Heyli isə 19% səs toplayıb. Amma Ayovada qeydə alınmış Respublikaçılar Partiyası üzvlərinin yalnız 6%-i səsvermədə iştirak edib. Nümayəndələrin səsləri belə bölünüb: Tramp - 20, DeSantis - 8 və Heyli - 7.

Bundan sonra keçmiş prezidentin əsas rəqibi hesab edilən DeSantis seçki kampaniyasını dayandırmaq qərarına gəlib və Trampı dəstəklədiyini açıqlayıb. Hətta əvvəllər Şimali Dakota qubernatoru Duqlas Burqum, Cənubi Karolinadan qaradərili senator Tim Skott və hind əsilli iş adamı Vivek Ramasvami də eyni şeyi etmişdilər. Demokratlara gəlincə, Bayden hətta Nyu-Hempşirdə namizədliyini rəsmi olaraq elan etmədi. Amma seçicilər onun adını bülletenə yaza bilərdilər. Onu demokratların praymerizində iştirakçıların demək olar ki, 66%-i dəstəkləyib. Ümumiyyətlə, Ayova və Nyu-Hempşirdə praymerizlərə həddindən artıq diqqət əsassızdır. Təkcə Sanders deyil, bu ştatlarda keçirilən praymerizlərin bir çox digər qalibləri də tezliklə prezidentlik uğrunda mübarizəni tərk ediblər.

Bayden və Trampa partiyalarının prezidentliyə namizədliyinə zəmanət verildiyini güman etmək tez olardı. Bir çox amerikalılar siyasi arenada eyni personajların uzunmüddətli dominantlığından yorulublar. Baydenin 82, Trampın 77, Hillari Klintonun da 77, prezidentliyə iki dəfə uğursuz namizəd olmuş senator Sandersin 83, Senatın Respublikaçı lideri Mitç Makkonelin 82, spiker Nensi Pelosinin də 84 yaşı var. Sorğular göstərir ki, amerikalıların 53%-i Trampın 2024-cü il seçkilərində iştirakına qarşıdır. Bayden üçün bu rəqəm 61%-ə çatır. O, qocalıqda və korrupsiyada, habelə çoxsaylı cinayətlər törətmiş oğlu Hunterə himayədarlıq etməkdə ittiham olunur. Tramp zorlamadan tutmuş konstitusiyaya zidd sui-qəsdə qədər müxtəlif ittihamlarla 93 cinayət işi ilə üz-üzədir.

## Üçüncü tərəflər

Digər amil üçüncü tərəf namizədlərinin roludur. Onların seçilmək şansı yoxdur, amma iki əsas partiyanın müəyyən qədər səsini əlindən alırlar. Sorğular göstərir ki, 4% qaradərili müstəqil namizəd Kornel Uestə, 1% isə Yaşıllar Partiyasının lideri Jill Steynə səs verəcək. Cari seçkilərə ən çox maraq göstərən şəxs 1968-ci ildə Kaliforniyada ilkin seçkilərdə qalib gəldikdən sonra öldürülən liberal Demokratik ikona, senator Robert Kennedinin qardaşı oğlu Robert Kennedi kiçikdir. Kiçik Kennedi gözlənilmədən Demokratlar Partiyasının seçki kampaniyasına qatılıb, lakin sonra Baydenə qarşı çıxıb. Əslində o, Trampın peyvənd və immiqrasiya əleyhinə bir sıra populist şüarlarını dəstəkləyib. O, həmçinin ABŞ-ın Ukraynada Rusiyaya qarşı hərəkətlərdə iştirakını pisləyib. Bu, demokratik isteblişmentin həddindən artıq narazılığına səbəb olub. Kennedi bundan sonar özünü müstəqil namizəd elan edib.

Görünür, Kennedi klanının sehri işləməkdə davam edir. Sorğulara görə, amerikalıların 52%-i Robert, Tramp üçün 42%, Bayden isə cəmi 41% "əlverişli" fikirdədir, deyə qeyd ediblər. Maraqlıdır ki, respublikaçıların 20%-i, demokratların isə 14%-i Kennediyə rəğbət bəsləyir. Amma respublikaçıların cəmi 7 faizi, demokratların isə 12 faizi ona səs verməyə hazırdır. O, Yuta və Nyu-Hempşirdə noyabrda keçiriləcək prezident seçkilərində səs vermək üçün artıq qeydiyyatdan keçib. Kiçik Robert Kennedinin kim üçün daha böyük təhlükə yaratdığı hələ aydın deyil - Tramp üçün, yoxsa Bayden üçün. Lakin sorğular göstərir ki, 55 prezident seçicisinin olduğu dörd orta ştatda (Pensilvaniya, Miçiqan, Arizona, Nevada) Bayden 2020-ci ildə qalib gəlib, Kennedinin namizəd olduğu təqdirdə Tramp bu səslərin çoxunu alacaq. Digər müstəqil namizədlər də meydana çıxsa, Demokrat namizədin vəziyyəti daha da pisləşəcək. Bu, Silikon Vadisindən olan investorlardan güclü maliyyə dəstəyi alan Din Phillips ola bilər. Seçicilərin 5%-i ona səs verməyə hazırdır.

Əgər hansısa səbəbdən Bayden seçkilərdə iştirak edə bilməsə, o zaman Demokratların mümkün namizədləri hazırkı vitse-prezident Kamala Harris (20% ehtimal), Mişel Obama (14%), Sanders (12%), Klinton (10%) ola bilər. Respublikaçılar Trampı DeSantis və ya Heyli ilə əvəz etməyə cəhd edə bilərlər. Ən əsası isə seçkilərə qədər olmasa da, seçkilərdən sonra ABŞ-ın ştatları arasında mərkəzdənqaçma prosesi daha da güclənəcək. Buna həm partiyalar arasında getdikcə kəskinləşən rəqabət, həm miqrant problemi, həm hər gün artan xarici borc – defolt təhlükəsi, həm də irqi və dini ayrıseçkilik təkan verəcək. Katalizator rolunda başqa parametrlər də iştirak edə bilər.

***V.VƏLİYEV***

# “AŞPA qurbana ehtiyacı olan elit avaralar üçün sığınacaqdır”



***Məlum olduğu kimi, Bakı AŞPA-da formalaşan dözülməz irqçilik, Azərbaycanafobiya və islamofobiya mühiti qarşısında bu strukturda əməkdaşlığı dondurdu. Öz növbəsində, AŞPA Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini ratifikasiya etməkdən imtina edib.***

## *Əcnəbi ekspertlərin rəyi*

Bunun Azərbaycan üçün hansı nəticələri ola bilər? AŞPA niyə ölkəmizə qarşı silahlanıb? Sonra nə olacaq? Bu sualları xarici ekspertlər “Caliber” analitik mərkəzinə cavablandırıblar. Ekspert rəylərini oxucularımıza təqdim edirik.

**Rusiya Federasiyasının Siyasi və Sosial Texnologiyalar Laboratoriyasının rəhbəri Aleksey Nejivoy** hesab edir ki, Azərbaycan AŞPA ilə əməkdaşlığı dondurmaq qərarına gəlməklə tamamilə düzgün iş görüb.

“Bu struktur indiki formada artıq nüfuzunu itirib, Avropa xalqlarının maraqlarına cavab vermir. Orada əsas hegemonluq etməyə çalışan qlobalist şər qüvvələrin marağıdır. Azərbaycan iqtisadiyyatı ilə yaxşı gedir, inkişaf vektoru və müttəfiqləri ilə hər şey yaxşıdır. Yaxın Şərqdəki münaqişə fonunda Qərb dünyasında çaxnaşma güclənir, dünyanın qalan hissəsinə qarət oluna və əsarət altına alına bilən “barbarlar” kimi yanaşmaq artıq mümkün deyil və bundan sonra da mümkün olmayacaq. Rusiya və Afrika ilə birlikdə İslam dünyası əlcəyi Qərbin üzünə atıb.










Amma Ermənistanı fəlakətə sürükləyən zəif erməni elitası dünya gücünü itirməkdə olan Qərb elitasının əlində oyuncağa və ümumiyyətlə, Ukraynanın taleyini erməni xalqına hazırlayan reallıq ipinə çevrilir- ” A. Nejivoy deyib.

Öz növbəsində, **Rusiya Müasir Dövlət İnkişaf İnstitutunun direktoru Dmitri Solonnikov** Azərbaycanın AŞPA ilə əməkdaşlıqla bağlı qərarını balanslaşdırılmış hesab edir.

“Hesab edirəm ki, Azərbaycanın qərarı düzgündür. Yeri gəlmişkən, Rusiyanın AŞPA ilə bağlı mövqeyi də oxşardır. Biz üçüncü tərəf oyunçularının- beynəlxalq təşkilatların suveren dövlətləri və onların nümayəndələrinin ləyaqətini alçaltmasına imkan verməməliyik. Müvafiq olaraq, bu halda AŞPA uduzur, çünki Azərbaycandan fərqli olaraq öz imkanlarını azaldır, imic və reputasiya itkilərinə məruz qalır. İslamofobiyanın təzahür edən amili isə AŞPA-nın beynəlxalq imkanlarının azalmasına töhfə verməkdə davam edəcək”,- D.Solonnikov bildirib.

Bu fikri **Rusiya Etnomilli Strategiyalar Agentliyinin direktoru, tarix elmləri doktoru Aleksandr Kobrinski** də bölüşür.

“Azərbaycanın qərarı indiki vəziyyətə adekvatdır. Bakı burada uduzmayacaq. AŞPA boş bir təşkilatdır və daim qurbana ehtiyacı olan elit avropalı avaralar üçün sığınacaqdır. Əgər kimsə çaqqalların qurbanı olmaqdan həzz alırsa, bu, Azərbaycan üçün deyil. Təqib hədəfi olmasa, AŞPA uzun müddət mövcud olmayacaq.

Azad və qürurlu millətlərə nəzarət etmək və onları sıxışdırmaq üçün yaradılmış bu təşkilatda Rusiya çoxdan fəaliyyətini dayandırıb”,- deyə A.Kobrinski bildirib.

**Ukrayna analitik mərkəzinin prezidenti Aleksandr Oxrimenkonun** sözlərinə görə, AŞPA nümunəsi beynəlxalq təşkilatların ayrı-ayrı ölkələrin maraqları üçün lobbiçiyə çevrilməsinin yolverilməzliyini göstərir.

“Azərbaycan sərt mövqe tutmaqla düzgün iş gördü. İndi AŞPA dəyişmək və bütün dünyada nəzərə alınacaq həqiqi beynəlxalq təşkilata çevrilmək barədə düşünməlidir. AŞPA-nın iş metodlarını və üslubunu dəyişmək lazımdır. Dünya dəyişib, buna uyğun olaraq bizə yeni beynəlxalq təşkilatlar və yeni yanaşma lazımdır”,- A.Oxrimenko əmindir.

**Qazaxıstanlı ekonometriya professoru, Nyu-York Elmlər Akademiyasının üzvü Nurlan Munbayev** hesab edir ki, AŞPA Azərbaycan və ya digər üzv dövlətlər tərəfindən etimadın itirilməsi səbəbindən siyasi itkilərlə üzləşə bilər.

“Etiraf edirəm ki, Azərbaycan gələcəkdə AŞPA və onun hərəkətləri ilə razılaşmayan digər ölkələrin beynəlxalq tənqidi və sanksiyaları ilə üzləşə bilər. Lakin yekun nəticələr gələcək diplomatik işlərdən və beynəlxalq ictimaiyyətin reaksiyasından asılı olacaq. Azərbaycanla AŞPA arasında münasibətlər həmişə kifayət qədər gərgin olub.

Bir tərəfdən, AŞPA Avropa Şurası çərçivəsində əməkdaşlığa və dialoqa töhfə vermiş üzvlərindən birini itirir. Digər tərəfdən, Azərbaycan AŞPA-da öz maraqlarını və mövqelərini müdafiə etmək imkanından məhrumdur. Mən istisna etməzdim ki, hər iki tərəf dialoqa və kompromislərə hazır olsalar, gələcəkdə etimadı və əməkdaşlığı bərpa etmək yollarını tapa bilərlər. Amma hələlik vəziyyət gərgin və qeyri-müəyyən görünür. Və daha çox ona görə ki, Azərbaycan həqiqətən də bəzi insan haqları məsələlərində dəstək əvəzinə AŞPA-dan ancaq tənqid aldı.

Hesab edirəm ki, AŞPA Azərbaycan və Qazaxıstan kimi təkcə Avropa təşkilatları ilə fəal əməkdaşlıq etmək deyil, həm də öz prioritetləri və milli maraqlarını müdafiə etmək iqtidarında olan dövlətlərlə kompromis həll yolları tapmaq üçün beynəlxalq diplomatiyanın qanun və prinsiplərinə əməl etsəydi, daha düzgün olardı”,- N. Münbayev bildirib.

**Gürcü politoloq, Rusiya Federasiyası Maliyyə Universitetinin eksperti, Qafqaz-Gürcüstan İslam Araşdırmaları Mərkəzinin direktoru Şota Axaidze** hesab edir ki, AŞPA-ya üzv olmaq və ya bu qurumdan çıxmaq Azərbaycan üçün prinsipial əhəmiyyət kəsb etmir.

“Əksinə, Azərbaycan bu strukturdan çıxsa, uduzan AŞPA olacaq. Birincisi, ona görə ki, AŞPA nominal təşkilatdır və qərarları məsləhət xarakteri daşıyır. İkincisi, ona görə ki, Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir, onunla əməkdaşlıq Avropa üçün faydalıdır”,- deyən Ş.Axaidze əlavə edib ki, Qərb siyasəti əsasən bu regionda sabitliyin pozulmasına yönəlib.

***Tərcümə - Elçin Bayramlı***

## Müstəmləkəçi Hollandiyanın Azərbaycanı ittiham etməyə haqqı çatmır




***“Azərbaycanın böyük qələbəsini, öz ərazi bütövlüyü və suverenliyini təmin etməsini həzm edə bilməyən ölkələrdən biri də Hollandiyadır. Məlumdur ki, 2020-ci il 44 günlük Vətən müharibəsi dövründə Hollandiya Ermənistanın vəkili qismində çıxış edirdi. Müharibə başa çatdıqdan sonra bu ölkənin Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyev də Niderland parlamentinin Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qərarına kəskin etirazını bildirmişdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.***

Deputat sözlərinə belə davam edib: “Bu yaxınlarda isə bu ölkənin Parlamentinin İkinci Palatasının Xarici Əlaqələr Komitəsinin ilk iclasında XİN başçısı Hanke Bruins Slot Azərbaycanla bağlı qərəzli və absurd fikirlər səsləndirərək reallıqları təhrif edib. Azərbaycanı Ermənistana qarşı etnik təmizləmədə ittiham etməyə çalışan Slot hətta Avropa İttifaqını Azərbaycana qarşı sanksiyalara hazır olmağa səsləyən cəfəng fikirlər də səsləndirib. Təbii ki, bu iddiaların hər biri növbəti dəfə faktların kobud təhrifidir.

Azərbaycan Ermənistandan fərqli olaraq, 30 il yalnız öz ərazilərinin azad olunmasına çalışıb. Hüquqları pozulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin olunması istiqamətində mübarizə aparıb. Amma hollandiyalı deputat və ya nazirlər bu müddətdə 30 il davam edən işğalı və onun ağır nəticələrini görmək istəməyiblər. Bu təvacüz siyasətinə görə Ermənistana qarşı sanksiyaların tətbiqi yada düşməyib. Əksinə, 2014-cü ildə Hollandiyada qondarma “erməni soyqırımı” abidəsinin qoyulmasına etiraz edən Azərbaycan-Türk diasporu fəallarına cinayət işi açılıb, 2018-ci ilin fevralında Holland parlamenti qondarma “erməni soyqırımı”nı tanıyıb. 44 günlük savaşdan sonra Hollandiya Parlamenti Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qərar qəbul etdi. Bu gün Azərbaycanın haqq işini qəbul etmək istəməyən Hollandiyanın yanaşması təbii ki, beynəlxalq hüquqa deyil, ikili standartlara söykənir. Biz bu qərəzli yanaşmanı rədd edirik. Əsrlər boyu uzaq İndoneziya, Seylon, Şimali Amerika ərazilərini əsarətdə saxlayan, bu gün də koloniyaların qaldığı Hollandiya özünün müstəmləkəçilik tarixini unutmamalıdır. Bu ölkənin Azərbaycanı əsassız yerə ittiham etməyə haqqı çatmır”.

TƏHLİL

# Müasir və uğurlu model: Azərbaycan gənclər siyasəti






***Azərbaycan gəncliyi hər zaman ictimai həyatın bütün sahələrində fəal mövqe sərgiləyərək, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Azərbaycan gəncliyi daim axtarışda olan, yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir. Bu gün Azərbaycanda gənclər siyasəti dövlətin böyük önəm verdiyi prioritet sahələrdəndir. Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişaf prosesinin avanqardına çevrilirlər.***

Üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirən Azərbaycan gəncliyi, ölkədə gedən proseslərin önündə gedərək dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman, ordu və digər sahələrdə uğurla çalışaraq, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti bu gün uğurla davam etdirilir. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır.

## “HƏR BİR AZƏRBAYCAN GƏNCİ HƏR ŞEYDƏN ÇOX, HƏR ŞEYDƏN ARTIQ MÜSTƏQİL AZƏRBAYCANIN BU GÜNÜ, GƏLƏCƏYİ HAQQINDA DÜŞÜNMƏLİDİR”

Ulu Öndər müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırıb. Gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritetidir. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər gənc nəslə qayğını əsirgəməyib. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Müxtəlif dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır. Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumu daim Ulu Öndərin diqqət mərkəzində idi. 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Ulu Öndər ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara ”Prezident təqaüdü”nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: ”Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”.

İstedadlı gənclərə dövlət qayğısının təzahürü olaraq 2 Fevral - Azərbaycan Gəncləri Günü. Ulu Öndər tərəfindən 2 fevral 1997- ci il tarixində imzalanmış Sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü təntənəli şəkildə qeyd edilməyə başlanıb. Ulu Öndər Heydər Əliyevin 1999-cu il iyulun 29-da imzaladığı ”Dövlət gənclər siyasəti haqqında” Fərmanla gənclərin inkişafı üçün daha əlverişli şərait yaradılmışdır. Fərmanla Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş, Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılmışdır.

## HƏR BİR İNSANIN GÜCÜ BİLİYİNDƏN ASILIDIR

Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti Onun layiqli davamçısı, dövlət başçısı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Gənclərin cəmiyyət həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər öz nəticəsini verir. İnkişafdan danışarkən əlbəttə ki, dövlət proqramlarını xüsusi qeyd etməliyik. Sərəncamlarda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Heç bir dövlətdə gənclərlə bağlı bu qədər dövlət proqramları qəbul olunmur. 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən ”Azərbaycan gəncliyi” dövlət proqramlarının uğurla həyata keçirilməsi, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün ”Prezident Mükafatı”nın təsis edilməsi, gənclər forumlarının keçirilməsi gənc nəslin hərtərəfli inkişafını stimullaşdırıb.

”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı” bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Dövlət Proqramı çərçivəsində gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam ifadə edərək bildirib ki, hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır: ”Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır”.

## AXTARIŞDA OLAN, YENİLİYİ SEVƏN QÜVVƏ

Bakıda və regionlarda istifadəyə verilən ”Gənclər ev”ləri (mərkəzləri), olimpiya idman mərkəzləri gənclərin maraq dairəsini genişləndirib, asudə vaxtın mənalı və səmərəli təşkili üçün yeni imkanlar yaradıb. Son illər ərzində gənclərin ictimai fəallığı yüksəlib, onların idarəetmədəki rolu artıb. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə qürurla yüksəlir. İdmançılarımız Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutdu. Müxtəlif xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun formalaşmasında və lobbiçilik fəaliyyətində yaxından iştirak edirlər. Gənclik gördüyü işlə, qazandığı nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə töhfə verir. Bu gün hər kəsə yaxşı məlumdur ki, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda da, daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Ölkəmizdə sağlam gənclik yetişib. Sağlam gənclik isə sağlam nəsil deməkdir. Bu gün tam əminliklə söyləyə bilərik ki, müstəqil Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində yetişən sağlam gənclik ölkəmizdə bütün sahələrdə fəallıqları ilə seçilirlər. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlar həyata keçirilib. Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər ruhlu gənclərdir. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onlara geniş imkanlar açılır. Təbii ki, hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq olunan dövlət proqramları gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsində əhəmiyyətli rol oynayır.

## KREATİV GƏNCLİK FORMALAŞIB

Gənclərə ayrılan daha bir diqqətdir ki, ölkəmizin bir neçə şəhəri müxtəlif illərdə Azərbaycanın ”Gənclər paytaxtı” elan edilib. 2012-ci ildən başlayaraq hər il paytaxt Bakı şəhəri istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri ”Gənclər paytaxtı” elan olunur. Bu günədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı, Mingəçevir şəhər və rayonları Azərbaycanın ”Gənclər paytaxtı” seçilib. Məlumat üçün bildirək ki, ”Gənclər Paytaxtı” 1 il müddətinə seçilir.

Bu müddət ərzində, həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılması yeni ideya və layihələrinin həyata keçirilməsinə dəstək verir. Bu gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir. Bu, bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir. Azərbaycan gəncləri bundan sonra da gördüyü işlərlə, qazandığı yeni-yeni nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə öz töhfələrini verəcəklər. Son illər gənclər siyasətinə ayrılan diqqət və qayğının nəticəsidir ki, gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə uğurla təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Təsadüfi deyil ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti dünyada müasir və uğurlu model kimi qiymətləndirilir.

Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb.

Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər onlar üçün yaradılan şəraitin təzahürüdür. Bu gün gənclərlə bağlı kifayət qədər normativ sənədlər mövcuddur. Cənab İlham Əliyevin gənclərə etimadı, onlarla görüşlərin təşkili bu diqqətin göstəricisidir. Bu gün məlum dövlət proqramları, həyata keçirilən layihələr gənclərin fəallığına stimul verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərini ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır. Cənab Prezidentin gənclərlə görüşü və gənclərin qarşısında konkret vəzifələr qoyması Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu bir daha təsdiqləyir. Azərbaycan gənclər ordusu da dövlət başçısının etimadını əməli ilə doğrultmalı, öz bilik və bacarıqlarını genişləndirməli, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb ölkəmizin inkişafına töhfə verməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tərəqqi və rifah naminə Qalib Liderə səs verək!






2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Qəbələ rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov, təşviqat qrupunun üzvləri Elsevər Mustafayev, Esmira Əsədova və Elşad Abdurahmanov çıxış ediblər. Çıxışlarda qeyd edilib ki, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atıb. 2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində 30 il ərzində xalqımızın qarşısında duran ən mühüm problem - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tam bərpası məsələsi həll edilib. Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və ölkəmizin parlaq gələcəyinin təminatçısı olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Qeyd edək ki, təşviqat kampaniyası çərçivəsində Qəbələ şəhəri "Heydər Əliyev prospekti 9" ünvanında da seçicilərlə görüş keçirilib.

# Seçimimiz Azərbaycana möhtəşəm uğurlar qazandıran İlham Əliyevdir!

*2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Pirallahı rayonunda seçicilərlə görüş keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.*





Görüşdə YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov, YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov, təşviqat qrupunun üzvləri Əli Kərimov, Elxan Məmmədov, Qair Carullayev çıxış ediblər. Çıxış edənlər bildiriblər ki, bütün fəaliyyəti ilə Ümummilli Liderin zəngin dövlətçilik məktəbinin layiqli davamçısı olduğunu təsdiqləyən Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan möhtəşəm uğurlar qazanaraq dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Həyata keçirilən islahatlar nəticəsində respublikamız güclü iqtisadi dayaqlara malik ölkə imicinə sahib olub.

Görüş zamanı qeyd edilib ki, qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb, 30 il ərzində işğal altında olmuş ərazilərimizin azad edilməsi və suverenliyimizi tam bərpa etməyimiz yeni dövrün başlanğıcıdır. İlk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək.

Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində aktiv iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüş zamanı çıxış edən seçicilər fevralın 7-də seçki məntəqələrinə gedərək Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə səs verəcəklərini bildiriblər. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# "Güclü Azərbaycanla qürur duyuruq!"



*2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Ağdam rayonunda gənclər, o cümlədən idmançılarla görüş keçirilib.*



Görüş zamanı ilk olaraq Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Prezident İlham Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Görüşdə YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, təşviqat qrupunun üzvləri Natiq Cavadov, Kənan Quliyev, Bəhruz Kazımov və qazi Elşən Zeynalov çıxış ediblər.

Qeyd olunub ki, tarixi zəfərlər və qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası bu seçkilərə "Qalib xalqın qalib Lideri!" şüarı ilə gedir. Tədbirdə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlarından geniş bəhs edilib. Bildirilib ki, bu gün hər bir Azərbaycan vətəndaşı məmnunluq hissi ilə dərk edir ki, Azərbaycanın son 20 ildə inkişafı birbaşa Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin adı və həyata keçirdiyi uğurlu siyasətlə bağlıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış ən böyük nailiyyətlərimizdən biri olan tarixi Zəfər isə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasıdır.

Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüş zamanı çıxış edən seçicilər fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza Zəfər sevinci yaşadan cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər. Görüş Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Son 20 ildə bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanılıb




***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Goranboy rayonunda seçicilərlə növbəti görüş keçirilib.***



Görüşdə YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev, Milli Məclisin deputatı Anar Məmmədov, təşviqat qrupunun üzvləri Kəmalə İsmayılova, İbrahim Həsənov, Gündüz Hacıyev çıxış ediblər.

Çıxışlarda qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, ümumiyyətlə cəmiyyət həyatının bütün sahələrində parlaq nailiyyətlər əldə olunub. Dövlət başçısının rəhbərliyi ilə qazanılmış ən böyük nailiyyətlərimizdən biri olan tarixi Zəfər isə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasıdır.

Natiqlər seçiciləri 7 fevral tarixində keçiriləcək səsvermədə fəal iştirak etməyə, qalib xalqın qalib Liderinə səs verməyə çağırışlar ediblər. Görüşlər zamanı seçicilər fevralın 7-də seçki məntəqələrinə gedərək Azərbaycanın davamlı inkişafına - Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verəcəklərini bildiriblər. Qeyd edək ki, şəhər ərazisində fərdi görüşlər də keçirilib.




# Qələbələrin davamı naminə!

***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Şirvan şəhərində seçicilərlə görüş keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib.***





Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Prezident İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Görüşdə YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Musa Quliyev, təşviqat qrupunun üzvləri Pərviz Rüstəmbəyov, Vasif Əlizadə və Akif Saqiyev çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edir, yeni nailiyyətlərə imza atır. Məhz bunun nəticəsidir ki, Prezident İlham Əliyevin siyasəti xalq tərəfindən birmənalı şəkildə dəstəklənir.

Natiqlər seçiciləri fevralın 7-də Azərbaycanın gələcəyinə - tarixə adını qızıl hərflərlə yazdıran qalib Liderə səs verməyə çağırıblar. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.




# “İlham Əliyevin Liderliyi ilə yeni nailiyyətlər əldə edəcəyik!”

2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Naftalan şəhərində seçicilərlə növbəti görüş keçirilib.

Görüşdə YAP Naftalan şəhər təşkilatının sədri Rövlan Heydərov, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov, təşviqat qrupunun üzvləri Elman Alıyev, Zülfümar Nuriyeva çıxış ediblər. Qeyd edilib ki, Prezident İlham Əliyev Ümummilli Liderimizin Azərbaycan üçün xilaskarlıq və rifah yolunu qətiyyətlə davam etdirib, doğma



Azərbaycanımızı qalib ölkəyə çevirib. Bildirilib ki, həmişə olduğu kimi, bundan sonra da xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək böyük uğurlara imza atacaq. Natiqlər hər bir seçicini qarşıdan gələn prezident seçkilərində fəal olmağa, qalib Lider İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər də artıq seçimlərini etdiklərini və fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza Zəfər sevinci yaşadan cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib. Qeyd edək ki, seçkiqabağı təşviqat kampaniyası çərçivəsində seçicilərlə fərdi görüşlər də keçirilib.

# Qalib xalqın dəyişməz seçimi Qalib Liderdir!

***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Salyan şəhərində, eləcə də Salyan rayonunun Qızılağac kəndində seçicilərlə görüşlər keçirilib.***





Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşlərdə YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov, Milli Məclisin deputatı Nizami Səfərov, təşviqat qrupunun üzvləri Sahib Həsənov, Ağabala Ağayev, Allahverdi Piriyev, Əzizağa Məmmədli, Yaqut Ələsgərova və Fərqanə Cəbrayılova çıxış ediblər. Çıxış edənlər Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində görülən misilsiz işlərdən bəhs edərək Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərin əhəmiyyətindən danışıblar.

Diqqətə çatdırılıb ki, gələcək inkişaf konsepsiyasının uğurla icrası üçün növbəti dövrdə də cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etməsi olduqca zəruridir. Xalqımız daim dövlətimizin başçısının ətrafında sıx birləşməli, 7 fevralda keçiriləcək prezident seçkilərində bu möhtəşəm siyasətin davamına səs verməlidir.

Görüşlər zamanı çıxış edən seçicilər həyata keçirilən dövlət siyasətini dəstəklədiklərini, seçkilərdə fəal iştirak edərək YAP-ın namizədi, qalib Lider İlham Əliyevə səs verəcəklərini bildiriblər.

***2024**-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Babək rayonunda seçicilərlə görüşlər keçirilib.*




# İlham Əliyev bu günədək bütün vədlərini yerinə yetirib!

Görüşlərdə YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov, partiyanın Mərkəzi Seçki Qərargahının üzvü, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan MR Ali Məclisinin deputatı Turan Məmmədli və digərləri çıxış ediblər. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Görüşlərdə bildirilib ki, Prezident İlham Əliyev 20 illik fəaliyyəti dövründə xalqa verdiyi bütün vədləri yerinə yetirib, ölkəmizin bütün sahələrdə sürətli inkişafa nail olub, müasir və peşəkar ordumuz Azərbaycanın ərazi bütövlüyünü tam təmin edib. Dövlət başçısı İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi həyatında önəmli rol oynayır.

Çıxış edənlər prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar. Seçicilər fevralın 7-də seçki məntəqələrinə gedərək qalib Lider İlham Əliyevə səs verəcəklərini bildiriblər.

# "Zəfərə, inkişafa, rifaha səs verək!"

***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Horadiz şəhərində seçicilərlə növbəti görüş keçirilib.***

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Görüşdə YAP Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva, təşviqat qrupunun üzvləri Almaz Həşimova və Namiq Məmmədov çıxış ediblər. Natiqlər fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal iştirak etmək və Qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs vermək üçün seçicilərə çağırış ediblər. Öz növbəsində seçicilər də Müzəffər Ali Baş Komandan İlham Əliyevi dəstəklədiklərini bildiriblər. Görüş Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə sona çatıb.



# Qalib Liderə inam və etimad sonsuzdur!

**2024**-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Hacıqabul şəhərində seçicilərlə növbəti görüş keçirilib.



Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Hacıqabul rayon təşkilatının sədri İsmayıl İbrahimov, təşviqat qrupunun üzvləri İbadulla Ağayev, Ramiz Həsənov və İradə İbrahimova çıxış ediblər. Çıxışçılar Azərbaycana möhtəşəm qələbələr qazandıran Liderə - İlham Əliyevə inam və etimadın sonsuz olduğunu vurğulayıblar.

Natiqlər seçiciləri 7 fevral tarixində seçkidə fəal iştirak etməyə və qalib xalqımızın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar. Görüş Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.



# Naxçıvan Muxtar Respublikası – 100

## Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yaracaq

***1988-1993-cü illərdə Ermənistan Azərbaycana qarşı tamah dişini qıcayanda və bir-birinin ardınca torpaqlarımızı işğal edəndə Naxçıvan üçün də olmazın çətinlikləri yarandı. Çünki Naxçıvanın işğalı da düşmənin baş planında əsas yer alırdı. Başlanğıc olaraq artıq 88-89-cu illərdə Bakı-Naxçıvan qatarlarında hər gün yeni-yeni hadisələr törədilirdi. Qatarlar əvvəlcə daş yağışına tutulur, daha sonra isə gülləbaran edilirdi. Vaqonlar, pəncərələri deşik-deşik idi, yaxud da pəncərə şüşələri tamamilə qırılıb tökülmüşdü, yerinə nazik taxta lövhələr vurulmuşdu. Maşinistlər iki gündən bir döyülüb, təhqir edilirdi. Sərnişinlərin taleyi təhlükə altında idi və bu, ozamankı Azərbaycan rəhbərliyini əsla narahat etmirdi. Lakin naxçıvanlılar yenə də qatarlardan istifadə etmək məcburiyyətində idilər. Çünki paytaxt Bakıya bu nəqliyyat vasitəsi ilə gedib-gəlmək ucuz başa gəlirdi və odövrkü iqtisadiyyatı tənəzzülə uğramış ölkənin unudulmuş regionu olan Naxçıvanın əhalisi çox kasıb vəziyyətdə yaşadığı üçün həyatları təhlükə altında olsa da, bu nəqliyyatdan istifadə edirdilər.***








Ermənistan ərazisindən Naxçıvana gələn elektrik enerjisi mütəmadi kəsilir, qaz kəməri partladılırdı. Nəticədə isə bu yerin əhalisi həftələrlə, aylarla işıqsız, qazsız qalır, qış aylarında Naxçıvanın sərt kontinental iqlimində soyuqdan donurdular. Elektrik enerjisinin kəsilməsi zavod, fabriklərin fəaliyyətinin dayanmasına, iş yerlərinin bağlanmasına, əhalinin aclıq, səfalətlə üzləşməsinə, xüsusilə isə informasiya blokadasına salınmasına səbəb olmuşdu. Əhali ölkədə olan hadisələrdən bixəbər yaşayırdı.

Prezident İlham Əliyev həmin günləri belə xatırlayır: "Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq.

### Ulu Öndərin gəlişi ilə təklənmiş adaya bənzəyən Naxçıvan nicat yoluna çıxdı

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlasaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gəlir. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrildi, hamı Onun timsalında böyük xilaskarını tapdı.

22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı, eyni zamanda naxçıvanlıların xilası tarixi kimi daxil oldu. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, Ulu Öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinq də yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın sonsuz məhəbbət və inamının təntənəsi idi.

Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

İllər ötdükcə, blokada Naxçıvanı düşmənə meydan oxudu. Məhv olma¬ması, yaşaması ilə onların gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkə¬nin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı.

Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı. Bu yolun bələdçisi isə Ulu Öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz Ümummilli Liderimizin sayəsində xalqa bəxş olundu.

### Ulu Öndərin hər çıxışı, söhbəti bu günün bir tarix dərsidir

Ulu öndər Heydər Əliyevin blokada Naxçıvanında yaşadığı, fəaliyyət göstərdiyi dövr iki illədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır. Bunlardan birincisi, Ulu Öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşması dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanlığının, alicənablığının nəticəsi idi. İkincisi, Ulu Öndərin qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, Onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqliklə analiz etdiyini görürsən. Ümumilikdə isə Ulu Öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvan blokadası haqqında məlumat almaları üçün bundan güclü ikinci bir mənbə yoxdur.

### Naxçıvan blokadasının canlı şahidi-100 yaşlı "Şərq qapısı" qəzeti

Muxtar respublika 30 ildən artıqdır ki, blokada şəraitində yaşayır. Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetinin səhifələri blokada Naxçıvanının canlı şahididir. Blokadanın ilk illəri insanların tək ümidi "Şərq qapısı" qəzeti idi. Gündəlik çıxan bu qəzet muxtar respublikanın rayonlarına vaxtında çatdırıla bilmirdi. Yanacaq qıtlığı olduğuna görə nəqliyyat işləmirdi. "Şərq qapısı" Naxçıvanda, onun sərhədlərində, dəmiryolunda, həmçinin digər sahələrdə olan hadisələrdən bəhs edən çoxsaylı yazıları dərc edən, Naxçıvana qarşı erməni təxribatlarını tam təfsilatı ilə ortaya qoyan, sakinlərə informasiya verən yeganə mətbu orqan, insanların əlinin çatdığı, oxuya bildiyi, məlumat aldığı yeganə mənbə idi.

1988-ci ildən başlayaraq qəzetin nömrələrini vərəqləyərkən blokadanın ilk illərinin ağırlığı, aclıq-səfaləti hopmuş bu səhifələr sanki dil açıb danışır. Danışdıqca da tarixi ədalətsizliyin, hadisələrin necə düşünülüb həyata keçirildiyindən söhbət açır.

"Kommunist" qəzetinin müxbiri Piri Məmmədovun "Şərq qapısı" qəzetinin 20 fevral 1990-cı il tarixli sayında dərc olunan "Həyat yolu: Bu yerlərdə qatarlar nə şərqdən qərbə gedir, nə də qərbdən şərqə..." adlı yazısında neçə-neçə müəssisələrə, insanlara üz tutulur, müsahibələr alınır, təhlillər aparılır. Yazının sonunda müəllif belə yazır: ...Coğrafiyada hər şey Qrinviçdən ölçüldüyü kimi, bu yerlərin də bütün məsafələri dəmir yolu ilə müəyyən edilir. Dəmir yolu muxtar respublika üçün hər şeydir. İqtisadiyyatından tutmuş siyasi, sosial və mənəvi həyatınadək hamısı onun ahəngdar işləməsindən asılıdır. Dəmir yolu-respublikanın həyat yoludur.

Ardı Səh. 11

# Naxçıvan Muxtar Respublikası – 100

## Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yaracaq

Əvvəli-Səh-10

Onsuz əslində Naxçıvan da yoxdur. Bu mənada dəmir yolu nəyin hesabına olur-olsun işləməli, qatarlar gecə-gündüz qərbdən şərqə, şərqdən qərbə getməlidir. Kimin kimdə acığı, hayıfı varsa, qisas almaq istəyirsə, qoy başqa yol seçsin, muxtar respublikanın, onun 300 minlik əhalisinin həyat yoluna toxunmasın. Əks təqdirdə daha böyük bəlalar, daha dəhşətli faciələr nəsibimiz olar...

Digər maraqlı və ədalətli yazıya nəzər salaq. Qəzetin 21 fevral 1990-cı il tarixli nömrəsində "Oqonyok" jurnalının icmalçısı Georgi Rojnev "Nəhayətsiz yol" məqaləsində yazır: Azərbaycan torpağında kiminlə görüşdümsə, hər bir müsahibim özünün açıq inamsızlığını gizlətmirdi: "Əgər fələn bütün mərkəzi qəzetlər və jurnallar, radio və televiziya bizi narahat edən problemlər barədə susur, ya utanmadan yalan danışırlarsa, sizin səfərinizin nə faydası!". Heç bir gün keçməmişdi, mən inandım ki, adamlar haqlıdırlar. Həlli yubanmış millətlərarası münaqişələrdə nə baş verirsə versin, oxucuya və dinləyiciyə eyni şaiyələr təqdim olunurdu: "Azərbaycan az qala qəddar təcavüzkardır, onun qonşuları isə günahsız qurbanlardır".
















...Öz vədimdə mən kələk gəlmirdim. Moskvaya qayıdıb mütləq həqiqəti danışacaqdım. Bəs sonra? İki aydan çox keçsə də, mən Azərbaycana və Ermənistana səfər barədə bircə sətir də çap etdirməmişəm. Heç bir Moskva qəzeti, heç bir jurnal mənə öz səhifələrində yer verməK istəmir. İzahı sadədir: mənim danışdığım həqiqət aylardan bəri oxucuların və dinləyicilərin beyninə yeridənlərə qətiyyən bənzəmir.

"Şərq qapısı"nın səhifələrində "Qatar gəlir, qatar gedir", "Sərhəddəki alov nəyi işıqlandırdı", "Çörək növbəsi", "Şəhərə... çörək dalınca", Həqiqətlər və müəmmalar, "Sədərək hadisələri", "90-ların acısı: Bacı toyu qardaş yasına döndü" kimi yüzlərlə yazılarda Naxçıvan blokadasının çətinliklərindən, Sədərəkdə və muxtar respublikanın Ermənistanla sərhəd digər rayonlarında törətdikləri münaqişələrdən, Naxçıvanın son dərəcə çətin bir şəraitdə yaşamasından, iqtisadiyyatının dağılaraq tamamilə iflic vəziyyətə düşməsindən, əhalinin maddi durumunun son dərəcə çətinləşməsindən söhbət açılır.

Yüz il sonra da "Şərq qapısı" qəzeti Naxçıvan blokadasının ağır günlərini və ümumilikdə blokada dövrünü səhifələrində yaşadan mənbə kimi istinadgahımız olacaq.

### Qarabağın işğalı ilə yaşıd Naxçıvan blokadası

Biz 3 il əvvələ kimi 30 ilin torpaq həsrətliləri, həm də 30 ilin blokada Naxçıvanının insanları idik. 1990-cı illərin alın yazısına çevrilən bu iki acının da düyünü çözülüb artıq. Ölkə Prezidentinin həm hərb meydanında, həm siyasi müstəvidə bütün dünyaya nəyə qadir olduğumuzu göstərməsi ilə, dəmir yumruq ətrafında birləşməyimizlə, övladımızı itirib "Vətən sağ olsun!" deməyimizlə, dağılan, viranə qalan evlərimizə alın belə qırışdırmamağımızla, uçuq-sökükləR altından yalnız bayrağımızı xilas edib köksümüzə sıxmağımızla bütün dünyaya milli mənliyin, torpaq sevgisinin nə olduğunu bəyan etdik. İndi illərlə acılarımıza susan dünya ölkələrinə həm hərbimizlə, həm də mənəvi dəyərlərimizlə örnəyik.

Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail olmaqdayıq. Ölkə Prezidentinin xalqımıza müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".

### Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yaracaq

2020-ci ilin payızında, 44-cü gündə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə İkinci Vətən müharibəsi qələbə ilə nəticələndi. 10 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları Bəyanat isə ondan bir gün öncəki qələbənin üzərinə bir qələbə də əlavə etdi. Ermənistan kapitulyasiya aktını imzalamaqla təslim olduğunu bildirdi. Beləliklə Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, itkisiz Azərbaycana qaytarıldı. Bəyanatın 9-cu bəndi isə Naxçıvanın blokadadan çıxması üçün cənab İlham Əliyevin təkidi ilə bir maddə olaraq sənədə salındı.

Baxmayaraq ki, Ermənistan bəyannamədə üzərinə düşən öhdəlikləri yerinə yetirməkdən hələ də boyun qaçırır, lakin buna baxmayaraq Naxçıvanı ölkə ilə birləşdirəcək dəhlizin açılması üçün xeyli vaxtdır ki, tədbirlər görülür. Ya Ermənistan, ya da İran İslam Respublikası üzərindən Zəngəzur dəhlizinin açılacağı sözsüzdür.

2022-ci ildə Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması bu sahədə əldə edilən növbəti diplomatik qələbədir.

Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir yolu və avtomobil nəqliyyatını təmin etməklə yanaşı, həm də bütün Orta Dəhliz ölkələri üçün mühüm əhəmiyyətə malik olacaqdır. Bu çərçivədə həyata keçiriləcək Qars-Naxçıvan dəmir yolu layihəsi Avropanı Naxçıvan üzərindən İran, Azərbaycan, Türkmənistan və Pakistanla birləşdirəcək.

Həm nəqliyyat, həm də elektrik enerjisi üçün nəzərdə tutulmuş bu dəhlizdən Ermənistan ağılsızlığı ucbatından kənarda qala bilər. Kimlərinsə dəstəyi olmadan var olmadığı ötən illər ərzində sübuta yetən işğalçı dövlətin dəhlizdən də özünü məhrum edərsə, tarixi bir peşmanlıq yaşayacağı sözsüzdür.

Hələlik isə bu, bir reallıqdır ki, Zəngəzur dəhlizi Naxçıvan blokadasını yaracaqdır. İllərlə bu blokadanın yarılmaması üçün can-başla çalışan ermənilərin əllərindən gələni etmələrinə rəğmən dəhliz açılacaq. Dövlətimizin başçısının dediyi kimi, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq.

Bu il Naxçıvan muxtariyyətinin 100 illiyini qeyd edir. Ölkə vətəndaşlarının hər birinin böyük arzusudur ki, bu yubiley ilində Zəngəzur dəhlizi ilə Naxçıvana səfər etsin. Və ümidvarıq ki, o gün yaxındadır...

**Mətanət Məmmədova**

# Dünyanı rəqəmlər idarə edir





***Bir çoxlarımız rəqəmlərin uğuruna və ya uğursuzluğuna çox ciddi inanırıq. Bəzilərimiz uğurlu və uğursuz dediyimiz rəqəmlərin mənası barədə o qədər dərin biliyə malik olmasaq da, hər hansı bir rəqəmin həyatımızda önəmli yer tutduğuna şübhə etmirik. Bir çox insan uğurlu və uğursuz rəqəmini də təyin edib. İnandığımız və qorxduğumuz bu rəqəmlər barədə nələri bilirik?***







### Dinlər rəqəmlərin gözü ilə

İncildə yazılır: "O hər kəsi məcbur etdi, kiçik-böyük, zəngin-kasıb, sərbəst və ya kölə, hər kəsin alnına yapışdırıldı, aləm aldadılan ruhları görsün deyə şeytanın rəqəmi yazıldı – 666. İslamda 99 rəqəmi müqəddəs hesab olunur. Çünki Tanrının ərəb dilində 99 adı var. Xristian ənənəsinə görə isə bu ədəd Tanrının birliyinə işarə edən mələkləri ifadə edir. Dinlərə görə 7 qat göy, 7 kainat, 7 qat cənnət, 7 qat cəhənnəm, yerüstü 7 qat, yeraltı 7 qat, 7 əsas rəng, Kəbənin ətrafında 7 dövr, və s. kimi özəlliklər var.

İslam dinində 7 mərtəbə var. Quranın ilk surəsi "Fatihə" 7 ayədir. İslam inanclarına görə yeraltında günahkarların gedəcəyi yeddi cəhənnəm var. Namaz qılarkən alın, iki əl, iki düz, iki ayağın baş barmaqları olmaq üzrə gövdənin yeddi əzasının yerə dəyməsi vacibdir. İslam inanclarına görə ölünün sarındığı kəfən yeddi ərşin olmalıdır. Kəbədə Məscidi-hərəm deyilən məscidin yeddi minarəsi var. İslam inanclarına görə qiyamət günü Mədinənin yeddi ayrı qapısı olacaq.

Yəhudilərdə müqəddəs şamdan 7 şamın birləşməsindən əmələ gəlir. Yəhudilər Qamış Bayramı dedikləri bayramda məbədlərdə toplanar, mehrabın ətrafında yeddi dəfə dolanarlar. Hindlilərdə, romalılarda, buddistlərdə də belə bir dini mərasim var. Müqəddəs saydıqları bir obyektin ətrafında yeddi dəfə dolanarlar. Krişna Şüurunda müqəddəs rəqəm 108 hesab edilir. Bu Tanrını əhatə edən 108 mələk deməkdir. Krişnaçıların ibadət zamanı istifadə etdikləri müqəddəs təsbehin 108 muncuğu var.

Xristian dünyasında 13 rəqəmi nəhs rəqəm kimi qəbul edilir. Bu rəqəmin uğursuz hesab edilməsinin səbəbi kimi isə, İsa peyğəmbərə xəyanət edən 13 şagird göstərilir. 13 rəqəminin nəhs hesab edilməsinin daha bir səbəbi də var, xristianlara görə cəhənnəmin 13 mələyi var. Maraqlıdır ki, xristianlar iki fərqli tarixi də uğursuz hesab edirlər. Bu tarixlər 1453 – İstanbulun fəthi, və 571-Məhəmməd peyğəmbərin doğum tarixi. Səbəbi isə hər iki tarixin rəqəmlərini ayrı-ayrılıqda ardıcıl toplayanda nəhs rəqəm hesab edilən 13 əmələ gəlir.

1453 = 1+4+5+3=13.

517 = 5+1+7=13

### Şeytanın rəqəmi- 666

Elə rəqəmlər də var ki, elliklə ondan çəkinirik. Bu "şeytan rəqəmi" dediyimiz tip rəqəmlərdir. Üç altının birləşməsinin yaratdığı 666 rəqəmi bir çoxlarının kabusudur. Bu rəqəm bir çox cəmiyyətlərdə "şeytan rəqəmi" kimi tanınır. Bu rəqəm haqqında bir çox inanclar var. Elmdə də 666 rəqəmi əks olunub. Həyatın qaynağı sayılan karbon atomlarının tərkibi belədir: 6 proton, 6 neytron, 6 elektron. Yəni 6-6-6.

İyun ayının 6-sı 2006-cı il, yəni 06.06.06 tarixi. Bu tarix bütün dünyada qorxu ilə qarşılandı. Xristian dünyasında bu tarixdə uşaq dünyaya gətirmək istəməyən qadınlar doğuşu ləngitmək üçün əllərindən gələni edirdilər. Onların inancına görə, bu tarixdə dünyaya gələn uşaq bədbəxt və şeytan ruhlu ola bilər.

Bu inanca dünya şöhrətli siyasətçilər belə inanır. Amerika Birləşmiş Ştatlarının eks prezidentlərindən biri- Ronald Reyqan evinin nömrəsinin 666 olmasından çox narahat idi, ona görə bu nömrənin 668-lə əvəzləndirilməsi üçün müraciət edir və nömrə dəyişdirilir.

### 9 rəqəmi mütləqiyyət deməkdir

9 rəqəmi isə mütləqiyyətin simvolu kimi xarakterizə edilir. Bir çox inanclarda bu rəqəm ölümü və yenidən doğuluşu ifadə edir. Bunun səbəbi kimi də 9-dan sonra gələn 10 rəqəminin 1 və 0-ın təkrarlanması kimi göstərilir. Hesab edilir ki, 10 yeni nəsə demək deyil, artıq hesablanmış iki rəqəmin birləşməsidir.

Bilirsinizmi, biz anamızın bətnində dəqiq olaraq nə qədər yaşayırıq? Əksəriyyət bunu 9 ay kimi bilir. Amma 9 ayın sonrası da var. Dünyaya normal yollarla gələn hər bir insan anasının bətnində 9 ay, 9 gün, 9 saat yaşayır. Yaşlı nəslin nümayəndələri bu sayın sonuna 9 dəqiqə və 9 saniyəni də əlavə edirlər. Çox maraqlı saydır, elə deyil?

Türk mifologiyasına görə, dünyanı yaradan Qara Xan, dünyanın tam mərkəzinə 9 budaqlı şam ağacı əkmişdi. Altaylara görə isə, insanın skeletində; baş, bel, diz, topuq, bilək, çiyin, dirsək, ovuc və ayaq biləyi olmaqla 9 adda əlavə var. Yaqutlara görə 9 Göy Tanrısı var. Altay türklərinin qiyaməti təsvir edən bir rəsmlərində dənizin dibində 9 ucluqlu bir qara daş var. Onların inancına görə, qiyamət günü bu daş 9 yerindən ayrılacaq, tünd sarı rəngdə dəmir atlara minmiş 9 döyüşçü ətrafa hücum edəcək. Dədə Qorqud dastanında da Dəli Domrul doğulanda atası 9 buğa yenir.

Rəqəmlərin yaratdığı maraqlı təsadüflərdən biri də böyük öndər Atatürkün həyatında ortaya çıxır. Atatürk 1981-ci ildə 19-cu yüzilliyin bitməsinə 19 il qalmış doğulub. 1900-ci ildə 19 yaşında hərbi məktəbə daxil olub. 19 May 1919-cu ildə Samsuna getmişdi və mindiyi gəmidə yalnız 19 sərnişin vardı. 19 il türk millətinin taleyini həll edib. Adı və soyadı- "Mustafa Kamal Atatürk" birləşməsi 19 hərfdir. 10 Noyabr 1938-ci ildə saat 9-da dünyasını dəyişib. 10 noyabr+ saat 9 = yenə 19. Atatürk vəfat edərkən 57 yaşında olub. 57 rəqəmi üç 19-un toplamından əmələ gəlir.

### Türklərin müqəddəs rəqəmi - 7

Körpəliyimizdən bu yana nənələrimizdən dinlədiyimiz nağıllarda həmişə bu rəqəm bizə sehirli görünüb. "7 qardaş 1 bacının nağılı", "7 divin nağılı", "7 qu quşu əfsanəsi" və s kimi nağılları çox dinləmişik. Həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatımızda bu rəqəm barəsində çox danışılır. Eyni zamanda mifologiyada da bu rəqəmin qutsallığı vurğulanır. Maraqlıdır ki, həftənin də 7 günü var. Göy qurşağı 7 rəngdən barətdir.

Şaman inanclarına görə Tanrı Ülgən insanlara yaxşılıq edən uca bir varlıqdır. Onun qatına gedən yolda yeddi manеə var. Şamanlara görə Tanrı Ülgən yer üzündə ilk olaraq yeddi kişi yaradıb. Onların inanclarına görə tufanın olacağını əvvəldən bildirən dəmir buynuzlu Göy təkə dünyanın ətrafını yeddi dəfə gəzmişdi. Sonra yeddi gün zəlzələ olmuş, yeddi gün dağlar atəş püskürmüşdü, yeddi gün yağış yağmış, yeddi gün fırtına olmuş dolu düşmüş, yeddi gün də qar yağmışdı.

Yeniçərilərdə yeddi qapı var. Adət qapısı, Ət qapısı, Ağa bölüyü qapısı, Solaxaylar qapısı, Meydan qapısı, Çayır qapısı, Qara kənd qapısı. İstanbulda Topqapı Sarayının yeddi böyük qapısı var. Müqəddəs Novruz bayramımızda gözəl adətlərimiz var. Bu adətlərdən biri də bayram axşamı süfrəyə 7 rəngdə boyanmış yumurta qoyulur. Sonuncu çərşənbə günü süfrədə ən az 7 cür nemət olmalıdır.

### Dünyadakı sirli 7- lər

Həftə 7 gun, göyqurşağı 7 rəng, dünyanın 7 möcüzəsi, doğmalıq bildirən 7 nəsil, insan 7çakralı, notların sayı 7, İslam dininə görə kainat 7 mərhələdə yaradıldı, Kəbənin ətrafı 7 dəfə dövr edilir, yəhudilərdə Müqəddəs Şamdan 7 Şamlıdır, qədim yunan adətlərində 7 ağıllı ağsaqqal varmış, yunan mifalogiyasına görə 7 əsas Tanrıça varmış, Misirdə günəş tanrıçası Ra 7 ruhludur, Cində müqəddəs 7 element varmış, Fenq-Şhuidə münasibət forması 7, Afrikalıların Kvanza bayramı 7 simvolludur, istirahət günü həftənin 7-ci günündə, üzümüzdə 7 dəlik var, agız, qulaqlar, burun deşikləri, gozlər, dünyada 7 qitə, qızıldərililərə görə 7 mövsüm var, 7 dəniz var, bütün yaponlara görə 7 rəqəmi uğurludur, ideal məktəb yaşı 7, göy üzü 7 qatdır.

"Kainat rəqəmlərdən ibarətdir" deyən Pifaqordan bu yana bütün insanlar həmişə rəqəmlərin özəlliyinə inanıb. Texnoloji inkişafda yeni dövrün- rəqəmsal eranın başlanğıcı isə daha geniş söhbətin mövzusudur.

Müqəddəs kitablardakı müqəddəs rəqəmlər də bu sıraya daxil edilə bilər. Ümumiyyətlə, insan uğurlu və uğursuz rəqəmlərə həmişə inanır. Gerçək olan yalnız bir şeydir- Tanrı heç bir şeyi təsadüf etməyib. Bütün təsadüflərin tarixçəsi onun zəruriliyini əks etdirir.

***Lalə Mehralı***

# Almaniya bəşəriyyəti 3-cü dünya müharibəsinə sürükləyir



***Uzun illər gözləmə mövqeyi tutan AŞPA nəhayət Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra əsl sifətini və niyyətini ortaya qoydu. Bəlli oldu ki, AŞPA-riyakarlığı özündə ehtiva edən və heç bir perspektivi olmayan bir qurumdur. 2024-cü ilin yanvarın 24-də AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi qərəzli qərar bir daha arqumentlərin əsaslı olduğunu təsdiqlədi. Söz yox ki, Azərbaycana qarşı irəli sürülən ittihamların əsası yoxdur.***



Birincisi bu iradlar bəhanədən başqa bir şey deyil. Azərbaycan xalqının öz Lİderi, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməklə 30 il erməni işğalı altında olmuş torpaqlarını ən qısa müddətdə azad etməsinə qısqanclıqla yanaşır və bunu heç cür qəbul edə bilmirlər. Eyni zamanda, onların ötən ildən Laçın yoluna, ümumilikdə Qarabağa monitorinq göndərmək cəhdlərinin alınmaması, ”Qarabağ ermənilərinin blokadası və ərazini tərk etməsi”ndən narahatlıq, bir sözlə, Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi və burada ikinci erməni dövlətinin yaradılması planlarının alt-üst olmasıdır. Frank Şvabenin dəstəsi iddia edir niyə Azərbaycan dövləti fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərinə AŞPA-nı dəvət etmir? Görən Frank Şvabe və digər AŞPA üzvü olan deputatlar anlayırlarmı ki, ölkələrin seçkilərə dəvət olunma kimi bir öhdəlikləri yoxdur. Bu məsələ, hər bir dövlətin daxili seçki siyasətinə bağlı olan məsələdir. Özünü demokratiyanın beşiyi hesab edən ABŞ seçkilərə heç bir dövlətin, o cümlədən, beynəlxalq təşkilatların müşahidəçilərini dəvət etmir. O zaman nədən Frank Şvabe hay-küy qaldırıb saçını yolmur?

## Frank Şvabe AŞPA çərçivəsində faşist ideologiyasını təbliğ edir

Digər tərəfdən 7 fevral seçkisini ATƏT - Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu izləyəcək. Artıq Azərbaycanda keçiriləcək seçkilərdə qısamüddətli və uzunmüddətli müşahidəçilərin sayı da müəyyənləşib. Seçki günü, yəni fevralın 7-də DTİHB-dən 200-dən çox müşahidəçi, ATƏT PA-dan isə 100-ə yaxın parlamentari səsvermə prosesini izləyəcək. Digər əsassız irad ondan ibarətdir ki, nədən Azərbaycan ”LGBT hüquqlarının qorunması” məsələsini həyata keçirmir. Bəyan edirlər ki, Azərbaycan orta məktəblərdə LGBT mövzusunu tədris etməlidir. Bu keylər yenə də bu məsələ də yanlışlığa yol verirlər. Çünki Azərbaycan xalqının dünya millətləri arasında sayılıb-seçilən özünəməxsus dəyərləri və milli mentaliteti var. Bu baxımdan, Azərbaycan İstanbul Konvensiyasına qoşulmayıb. Qeyd edək ki, İstanbul Konvensiyanın əksər müddəaları Azərbaycan qanunvericiliyi üçün yenilik deyil, müxtəlif normativ hüquqi aktlarda təsbit olunub. İstanbul Konvensiyası - Avropa Şurasının 2011-ci ildə Türkiyənin İstanbul şəhərində qəbul etdiyi ”Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” konvensiyadır. Bunu hüquqi sənəddən daha çox ideoloji sənəd hesab edirlər. Belə ki, ənənəvi ailə modeli və bütünlükdə adına milli mental dəyərlər dediyimiz adət-ənənənin aradan qaldırılmasına, ailədə ənənəvi qadının stereotiplərinin sındırılmasına hesablanmış konvensiya hüquqi sənəddən daha çox ideoloji sənəddir. Qısası görünən ondan



ibarətdir ki, AŞPA-dakı fransalı və almaniyalı keylərin müdafiəçiləri və faşist ideologiyasının təbliğatçıları Azərbaycana qarşı ağılasızmaz əsasız ittihamlar irəli sürməklə özlərini və Avropadakı təmiz vicdanlı xalqları da rüsvay etmiş olurlar.

## Böyük Britaniyanın müdafiə naziri Qrant Şapps 3-cü dünya müharibəsinin astanasında olduqlarını qeyd edib

Bəzən o fikir vurğulanır ki, Almaniya anlaqsız şəkildə Azərbaycana qarşı qərəzli iddia ilə çıxış edib. Yəni, Fransanın təhriki və təzyiqləri səbəbindən Azərbaycan haqqında yanlış iradlar irəli sürülüb. Vurğulanır ki, bir sıra hallarda Fransa öz istəklərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır. Buna səbəb Fransanın xarici siyasətində yaşanan ardıcıl uğursuzluqlar və adıçəkilən ölkənin nüfuzdan düşməsidir. Buna görə də Fransa Almaniya vasitəsilə AŞPA-nı Azərbaycana qarşı vasitə kimi istifadə etməyə çalışır. Bəlkə də fikirlər məntiqlidir. Lakin sual olunur, Almaniyada düşünən beyin yoxdurmu? Digər tərəfdən, son vaxtlar Almaniyada nasist dərnəklərinin artması, faşist ideologiyasının təbliğatının dövlət səviyyəsində inkişaf etdirilməsini nəzərə alsaq, deməli, Almaniyanın da azad, demokratik xalqlara nifrət hisslərini aşılanması öz ağıllarının və qarşılarında dayanan vəzifələrdəndir. Narahatedici məqam ondan ibarətdir ki, nasist ideologiyası addım-addım Avropaya daşınır. Halbuki, zamanında faşistlərdən ən çox zərbəni elə Avropa ölkələri alıb. İndiki proseslər isə onu təsdiq edir ki, artıq Avropa dövrün tələbinə boyun əymək məcburiyyətində qalıb. Yəni, maraqlarının itirilməsi ilə barışmaq istəmədiklərindən Avropa ölkələrinin bəzi hakimiyyətləri zorən faşist ideologiyasının tələblərini nəzərə almağa başlayıblar. Bu isə təhlükəlidir. Yeni müharibələr, münaqişələr dünyanı cənginə ala bilər. Hətta üçüncü dünya müharibəsi baş verə bilər. Bununla bağlı Böyük Britaniyanın müdafiə naziri Qrant Şapps narahatçılığını dilə gətirib və 3-cü dünya müharibəsinin astanasında olduqlarını qeyd edib. Son vaxtlar Yaxın Şərqdə və Ukraynadakı vəziyyətin getdikcə daha amansız xarakter daşıması, Braziliya-Venesuela, Çin-Tayvan, Şimali Koreya- Cənubi Koreya, Fars molla rejimi - ABŞ, İsrail qarşıdurması və digər münaqişələr onu deməyə əsas verir ki, 3-cü dünya müharibəsi qaçılmazdır. Xatırlatmaq lazımdır ki, Ukrayna prezidenti V. Zelenski BMT tribunasında çıxışı zamanı bildirmişdir ki, Rusiya-Ukrayna müharibəsinin Polşa sərhədlərinə çatması ilə 3-cü dünya müharibəsi başlayacaq: ”Ukrayna süqut etsə, on ildən sonra nə baş verəcək? Sadəcə, bu barədə düşünün. Polşaya çatsa, bundan sonra nə olacaq? Üçüncü Dünya Müharibəsi? Biz bütün dünyanın dəyərlərini müdafiə edirik. Ən yüksək qiyməti isə ukraynalılar ödəyir. Biz həqiqətən azadlığımız üçün mübarizə aparırıq, ölürük. Biz elmi fantastika deyilik, biz kitab deyilik. Biz dünyanı məhv etmək təhlükəsi yaradan nüvə dövlətinə qarşı real mübarizə aparırıq”. V. Zelenski onu da bildirmişdir ki, Amerika Birləşmiş Ştatları Ukraynanı maliyyə cəhətdən dəstəkləyir və mən buna görə minnətdaram: ”Mən sadəcə hesab edirəm ki, onlar təkcə Ukraynanı dəstəkləmirlər. Ukrayna yıxılarsa, Putin sözsüz ki, yoluna davam edəcək. Putin Baltikyanı ölkələrə çatanda Amerika Birləşmiş Ştatları nə edəcək? Polşa sərhədinə nə vaxt çatacaq? Ukrayna daha nə etməlidir ki, hamı bizim böyük minnətdarlığımızı ölçə bilsin? Biz bu müharibədə həlak oluruq. Bütün dünya qərar verməlidir ki, biz Putini dayandırmaq istəyirik, yoxsa dünya müharibəsinə başlamaq istəyirik. Biz Putini dəyişə bilmərik... Keçmişə qayıda bilmərik. Amma biz bunu burada dayandıra bilərik”. Rusiya Prezidenti Vladimir Putin isə bildirib ki, ”Üçüncü Dünya Müharibəsi baş verərsə, qalib olmayacaq. O cümlədən, ABŞ-ın simasında da qalib olmayacaq”. Vladimir Putin qeyd edib ki, Birləşmiş Ştatlar Ukraynada münaqişənin kəskinləşməsindən qorxmadığını iddia etsə də, oradakı sağlam düşüncəli insanlar işi Üçüncü Dünya Müharibəsinə aparmaq istəmirlər.

## Almaniya dünyanı yeni müharibələrlə təhdid edir

Hazırda baş verən qanlı müharibələrin gedişatı təsdiq edir ki, Almaniyanın faşist dərnəklərinin bu və digər formada həmin müharibə və münaqişələrdə rolu var. Yəni Almaniya bir dövlətə hərbi yardım göstərirsə, digər münaqişəli dövlətə maliyyə dəstəyi göstərir. Başqa birisinə isə, həm maliyyə, həm də hərbi dəstək göstərməklə müharibəni qızışdırır. Nəzərə almaq lazımdır ki, Almaniya bəşər tarixinin yeganə qorxulu dövlətlərindəndir ki, bir əsrdə baş verən iki dünya müharibəsinin müəllifidir. Həmin müharibələr zamanı ümumilikdə 110 milyon insan həyatını itirib, 360 milyon insan isə sağlamlığından məhrum olub.

”Rusiyanın NATO-nun şərq cinahına ”hücum” ehtimalını nəzərdən keçirir”. Bu barədə Almaniyanın ”Bild” tabloidinin əldə etdiyi mümkün münaqişənin gizli ssenarisində deyilir. Almaniya Silahlı Qüvvələrinin komandanlığı özü¬nün fəaliyyət planını hazırlayıb. ”Bild” alman komandanlığının planı əks olunan ”məxfi” sənədlərə istinad edərək xəbər verir ki, Rusiyanın təcavüzünü önləmək üçün onun qoşunları Avropa İttifaqına (Aİ) üzv ölkələrin ərazisinə daxil olmaz¬dan əvvəl, NATO müəyyən edilmiş X günündə Şərq cəbhəsinə 300 min əsgər göndərəcək. Hələ 2022-ci ilin fevralında Almaniya müdafiə naziri Christine Lambercht Almaniyanın Avropanın lider hərbi gücü olmaq istəyində olduğunu bəyan etmişdir. Eyni ilə Adolf Hitler də hakimiyyətə gəldiyi zaman hədəflərinin dünyanın ən güclü ordusunu yaratmaq olduğunu bildirmişdir. Hitler nəzərdə tutduğu ordunu yaratdı və sonrada ikinci dünya müharibəsini həyata keçirməklə insanlığa böyük fəlakətlər yaşatdı. Dünya hədəfini açıqlayıb.

Almaniya Xarici Əlaqələr Şurasındakı çıxışında müdafə naziri Christine Lambercht Lambrecht Almaniyanın hazırlanmaqda olan ilk Milli Təhlükəsizlik Strategiyasının əsas xətlərindən danışarkən diqqətəlayiq mesajlar verib. Nasist dövrünün yaratdığı şübhələrin aradan qaldırılmasının lazım olduğunu müdafiə edən Lambrecht, Almaniyanın bu gün güclü bir ölkə olduğunu və Alman Silahlı Qüvvələri Bundeswehrin də təhlükəsizliyi təmin edən baş rol kimi görülməli olduğunu bildirib. Həqiqətən də, Almaniya ordusu güclənməkdədir. Lakin gücləndikcə Almaniya hakimiyyəti insanlığı təhdid etməkdədir. Nəzərə almaq lazımdır ki, 2005-ci ilə qədər Almaniya ordusunun hərbi təchizatı o qədər də geniş deyildi - cəmi 4, 7 milyard dollar. Lakin Almaniya 2009-cu ildə hərbi xərcləri 45,6 mld. dollara qədər artırdı. Hazırda hərbi xərclərin miqdarına görə dünyada 7-ci yeri tutur. Hərbi xərclər Almaniya Ümumi Daxili Məhsulunun 1,3%-ni təşkil edir. Hal-hazırda Almaniya ordusunda 250 min peşəkar hərbçi, 50.000 nəfər 6 ay müddətinə orduda xidmət edən 18-25 yaş arası çağırışçı və 2.500 nəfər aktiv ehtiyat hərbçi xidmətdədir. Hətta Almaniya hökuməti qadınların da orduda xidmət etməsinə icazə verir. Məhz bunun nəticəsidir ki, Almaniya ordusunda xidmət etmək istəyən qadınların sayı hər il artmaqdadır. Bugünkü açıqlanan məlumata görə, hazırda Almaniya ordusunda xidmət edən qadınların sayı 78 min 500 nəfərdir. Təbii ki, Almaniya ordusunun güclənməsi heç də sərhədlərin mühafizəsinə və ya gözlənilən xarici müdaxilələrin qarşısını almağa hesablanmayıb. Günün birində Almaniyanın qonşu ölkələrin ərazilərinə hücum etsə, bu, heç də təəccüblü görünməyəcək. Çünki Azərbaycanda bir el məsəlində deyildiyi kimi, ”su axıb çuxurunu tapar”. Almaniya müharibələrin törədilməsində maraqlı olan dövlətdir. Hər zaman çalışıb ki, sivil, demokratik dünyaya qanqada gətirsin, ölüm itimlər yaratsın, şəhərlər viran edilsin, kənd və qəsəbələr yer üzündən silinsin. Bu məkrli niyyətdən Almaniyanın imtina edə biləcəyi inandırıcı deyil. Çünki yuxarıda qeyd etdiyim kimi, Almaniya mənən və ruhən faşist ideologiyasına bağlıdır. Faşizm isə insanlıq üçün fəlakət deməkdir. Ona görə də birmənalı şəkildə demək olar ki, Almaniya bəşəriyyət üçün təhlükə mənbəyidir. Təhlükənin aradan qaldırılmasının isə bir yolu var- başının dəmir yumruq gücünə də olsa əzmək. Necə ki, 1918-ci ilin noyabrın 11-də və 1945-ci ilin mayın 8- də Almaniyanı diz çökdürməklə təslim olmağa məcbur edildi.

***ILHAM ƏLİYEV***

# Dağıdıcı müxalifətin seçki təxribatı ola bilər

***Azərbaycan daha da inkişaf etdikcə və qələbələri artdıqca xarici məkrli qüvvələrin də narahatlığı artmaqdadır. Çünki bir müsəlman-türk dövlətinin güclənməsi onlara dünya siyasətində məkrli planlarının həyata keçirilməsinə ciddi problem yaradacaq.***







Haradasa Fransa, Almaniya, Niderland, ABŞ kimi erməni lobbisinin təsiri altında olan hakimiyyətlərin Azərbaycana qarşı qərəzli, bəzən ikili standartlara hesablanan siyasətləri başa düşüləndir. Ancaq Azərbaycanın dağıdıcı müxalifətinin başbilənlərinin xarici maraqlı mərkəzlərin mövqeyindən çıxış etməsi anlaşılan deyil. Şübhələr, həm də ehtimallar yaradır ki, dağıdıcı müxalif məxluqlar birbaşa erməni lobbisindən sifarişlər alırlar. Bu şübhələri gücləndirən başlıca məqam "Milli Şura"nın sədri Cəmil Həsənlinin müsahibələrinin birində "hər ay Soros fondundan 200 ABŞ dollar məvacib almışam",- deyə bildirməsidir. Söz yox ki, C.Soros nə dəli, nə də ki gic deyil, kiməsə boş yerdən pul ödəsin. Deməli, C.Həsənliyə və Azərbaycanın dağıdıcı müxalifətinə Soros və digər mərkəzlər tərəfindən ödənilən vəsait məqsədlidir. Yəni, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı yersiz. Burada iki tərəfin özünəməxsus maraqları var. Sorosun məkrli niyyəti Azərbaycanda gərginlik yaratmaqdırsa, dağıdıcı müxaliflərin də istəyi pul qazanmaqdır. Dəfələrlə Əli Kərimlinin, Cəmil Həsənlinin, Arif Hacılının, Fuad Qəhrəmanlının və digərlərinin Qarabağ zəfərinə kölgə salmaq, iqtisadi-sosial uğurlara zərbə vurmaq cəhdləri, məhz Soros və digər xarici məkrli təşkilatlardan gələn sifarişlərdir.

### AXCP və Müsavat destruktiv fəaliyyətə üstünlük verir

Dağıdıcı müxalifətin bütün imkanları ilə xarici maraqlı dairələrə satılması Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri ilə cəmiyyət arasında dərin uçurum yaradıb. Ölkəmizdə keçirilən bütün seçkilərdə müxalifətin rüsvayçı məğlubiyyətlə üzləşməsi cəmiyyətin onlara vurduğu sərt şillədir, ən böyük cəzadır. Buna baxmayaq, onlar nəticə çıxartmırlar. Seçki uğursuzluqlarının səbəblərini elmi-siyasi təhlilini aparmırlar. Ən azı papaqlarını qarşılarına qoyub, seçki məğlubiyyətinin səbəblərini müzakirə etmirlər. Bu da növbəti seçkilərdə onların yenidən acınacaqlı məğlubiyyət yaşamalarına gətirib çıxarır. Fikir verilsə, bir daha aydın olar ki, AXCP və Müsavat daim destruktiv fəaliyyətə üstünlük veriblər. Hər zaman milli maraqlarımız, dövlət və dövlətçiliyimizə qarşı əks-kampaniya aparıblar. Bu gün Fransa, Almaniya, Niderland, ABŞ kimi dövlətlərdə kök salan qaranlıq dairələr, eləcə də Fransanın və Almaniyanın girovunda olan AŞPA Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirir, Azərbaycanın dağıdıcı müxalifəti isə susur.

### İstənilən təxribatın qarşısı sərt şəkildə alınacağı şübhəsizdir

İndi də seçkilərlə bağlı təxribatçı fikirlər səsləndirən dağıdıcı məxluqlar bununla cəmiyyətlə aralarında pozulmuş münasibətləri aradan qaldırmaq niyyətində olmadıqlarını nümayiş etdirirlər. Halbuki, Qarabağın azadlığa qovuşmasından sonra bütöv Azərbaycanda ilk dəfə keçiriləcək 7 fevral növbədənkənar prezident seçkilərində iştirak etməklə öz platformalarını açıqlaya bilərdilər. Ən azı seçkiyə qatılmasalar da, seçici fəallığının artırılması üçün müəyyən təşəbbüslərlə çıxış edə bilərdilər. Necə ki, AMİP, KAXCP, Vəhdət, ADP və digərləri seçkilərdə namizədlə çıxış etməsələr də, seçkilərlə bağlı müsbət elementlərə söykənən mövqe ifadə edirlər. Lakin dağıdıcı müxalifət müstəqil mövqeyə və fəaliyyətə malik olmadıqlarından seçkiləri boykot etmək kimi anormal qərar verdilər. Təbii ki, bu absurd qərar Əli Kərimlinin, Cəmil Həsənlinin, Arif Hacılının zəifliyin və qorxaqlığının nəticəsidir. Növbəti dəfə rüsvayçılığa və bununla da gülüş hədəfinə çevriləcəklərini anlayan dağıdıcı ünsürlər seçkiləri boykot etdikləri barədə qeyri-ciddi açıqlama ilə çıxış etdilər. Hər gün sosial şəbəkələr də, xaricdən yayımlanan internet TV-lər də müxtəlif iddialarla çıxış edən, ittihamlar səsləndirən dağıdıcı müxalifət qarşıdurmalar yaratmaq üçün məqam gözlədiklərini də gizlətmirlər. Bu isə onu göstərir ki, dağıdıcı müxalifət seçki prosesində təxribatlar törətmək üçün xüsusi tapşırıqlar alıb. Lakin xalq ayıq-sayıqdır və istənilən təxribatın qarşısı da sərt şəkildə alınacağı şübhəsizdir.

***İLHAM ƏLİYEV***

# "Azərbaycan AŞPA ilə bağlı düzgün qərar qəbul edib"

***Rusiya Federasiyası Dövlət Dumasının MDB İşləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov "Moskva-Baku" portalına müsahibəsində Azərbaycanın Avropa Şurası Parlament Assambleyasının (AŞPA) son sessiyası çərçivəsində strukturda bir sıra anti-Azərbaycan təxribatlarından sonra isə bu təşkilatla qarşılıqlı fəaliyyəti dayandırmaq qərarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***



***- Leonid İvanoviç, bir neçə gün əvvəl Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının sessiyasının ortasında strukturla qarşılıqlı fəaliyyəti dayandırmaq və sessiyanı tərk etmək qərarına gəldi. Bu addımın səbəbi, deyildiyi kimi, Azərbaycana təzyiq cəhdləri, AŞPA-nın Qarabağ məsələsinə qeyri-taraz münasibəti, Qarabağda antiterror əməliyyatı ilə bağlı Bakının tənqid edilməsi idi. Səs çoxluğu ilə AŞPA Azərbaycan nümayəndə heyətinin statusunu ratifikasiya etməməyə qərar verdi, deyirlər ki, Azərbaycan guya strukturun tələblərini yerinə yetirmir...***

- Bakının bu qədər ədalətli və sərt reaksiya verməsi diqqət və hörmətə layiqdir. Bu gün suveren ölkələr üçün belə cavabların vaxtıdır. Bildiyiniz kimi, Rusiya da Qərbin, xüsusən də AŞPA-nın davamlı təzyiqlərinə məruz qalır. Nəhayət, bir neçə il əvvəl, son nəticədə bu struktura ödəniş etməməyə qərar verdik. Sonra da Avropa Şurası Parlament Assambleyası "ödə, qayıt" deyərək işə qarışmağa başladı. Demək olar ki, "biz sənə hər şeyi bağışlayacağıq" kimi təkliflər. Axı onun məmurları böyük maaş alırlar. Həqiqətən bağışlanacaq heç nə yoxdur. Nəhayət, etimadnamələrimiz təsdiqləndi və biz qayıtdıq. Və mən inanıram ki, Azərbaycan istəsəydi, haqlı olaraq eyni şeyi edə bilərdi- sadəcə olaraq, ödənişləri dayandırın.

Qərb təkcə Rusiyaya münasibətdə deyil, həm də Azərbaycan, Türkiyə və "qeyri-demokratik" kimi qələmə verdikləri suveren ölkələrlə münasibətdə həmişə açıq şəkildə qeyri-bərabər nəfəs alıb. Onlar bizə qarşı bu münasibəti davamlı olaraq qeyri-dost qətnamələr qəbul etməklə nümayiş etdirirlər. Yadımdadır, biz Rusiya nümayəndə heyəti bir dəfə Qərb platformasında Azərbaycan əleyhinə qətnamənin qəbulunu yekdilliklə necə dayandırmışdıq. İlyas Maqomed-Salamoviç Umaxanov artıq hava limanına gəlmişdi, lakin biz onu geri gətirdik və bu, bir səs əlavə etməklə Azərbaycana qarşı yönəlmiş sənədin qəbulunu dayandırmağa imkan verdi.

Bu gün Qərb üçün, Amerika və onun Avropada tabeliyində olanlar üçün Cənubi Qafqazı qızışdırmaq vacibdir. Ona görə də bu cür təzyiq cəhdləri xüsusilə fəal şəkildə, o cümlədən parlamentlərin qarşılıqlı fəaliyyəti səviyyəsində edilir. Avropa ölkələri yuxarıdan gələn bu "direktivi" kifayət qədər intizamlı şəkildə həyata keçirirlər. Bu gün, o cümlədən AŞPA-da müxtəlif ölkələrin nümayəndələri var ki, yuxarıdan icazə verilsə, qaçır, komissiyaları narahat edir və nəticədə Parlament Assambleyası ədalətsiz qərarlar qəbul edir. Bu gün də əvvəlki kimi heç nə dəyişməyib, AŞPA həm də bir növ "çubuq", suveren ölkələrə təzyiq aləti kimi çıxış edir.

Azərbaycan AŞPA ilə bağlı qərarından qətiyyən peşman olmamalıdır. Biz oradan ayrıldıq və vəziyyət daha da pisləşmədi. Niyə təzyiqə dözməliyik- bunun üçün heç bir səbəb yoxdur. Bunun qarşısını almaq üçün bu təzyiq və ədalətsizlikdən, ikili standartlardan danışmalıyıq. Bakı tərəfindən bu düzgün verilmiş qərardır.

Mən həmişə təəccüblənmişəm: AŞPA sessiyasının yarısı əksər hallarda hansısa ölkəni, çox vaxt Rusiyanı "ləkələmək", "qarlamaq"la keçir. Biz Parlament Assambleyasından çıxanda fikirləşdim: "Onlar, indi nə edəcəklər". Sonda tapdım: indi də başqalarını "yaxalayacaqlar".

***- Bəs niyə AŞPA (eləcə də bir çox digər Qərb strukturları və ölkələri) Qarabağ ətrafında yaranmış vəziyyətdə, buranın beynəlxalq hüquq baxımından Azərbaycanın suveren ərazisi olmasına baxmayaraq, nədənsə inadla Ermənistanın tərəfini tutur.***

- Onlar, dediyim kimi, Bakıya münasibətdə həmişə qeyri-bərabər nəfəs alıblar. Onlar Rusiya kimi Azərbaycanı da "maarifləndirilməli" dövlətlər sırasına daxil ediblər. Ermənistan isə burada ancaq alətdir, detonatordur. Sadəcə istifadə edirlər.

Bu gün təzyiq edənlərin heç biri nə Azərbaycanın, nə də Ermənistanın heç vaxt dostu olmayıb və olmayacaq. Onlar üçün prinsipcə dost deyə bir şey yoxdur. Tapşırıqları yerinə yetirirlər. Düşünürəm ki, indi Azərbaycana təzyiqləri artırmaq siqnalı yeni gəlib.

Prezident İlham Əliyev hər şeyi mükəmməl görür, bütün bunların niyə edildiyini görür. Bu yaxınlarda Azərbaycan dövlətinin başçısının Qərbdə ikili yanaşmadan, ikili əxlaqdan danışdığı müsahibəsinə baxdım. O, bütün bunları mükəmməl başa düşür və Azərbaycana təzyiq göstərmək, manipulyasiya etmək, onu Qərb oyunlarına sürükləmək cəhdlərinin qarşısını alır. Azərbaycan niyə ona qarşı bu cür təzyiq cəhdlərinə daha açıq cavab verməyə başladı? Çünki ədalətliolaraq Azərbaycanın statusu son vaxtlar artıb və o, təzyiqlərə təzyiq edənləri öz yerinə qoymağa hesablanmış addımlarla cavab verə bilir.

***- Fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Dövlət Dumasından kimlər monitorinq üçün göndəriləcək?***

- Dumanın nümayəndə heyətinə Dövlət Dumasının MDB işləri üzrə komitəsinin birinci müavini Kazbek Taisayev başçılıq edəcək. Duma Şurası keçirildi və nümayəndə heyətinə hər fraksiyadan bir nümayəndə təyin edildi. Əminəm ki, Azərbaycanda seçkilər şəffaf keçiriləcək və hər şey yaxşı olacaq.

Yeri gəlmişkən, AŞPA ilə bağlı sualınıza qayıdaq. Qərbin qeyri-demokratik hesab etdiyi ölkələrdə, əgər seçki keçirsələr, Qərb müşahidəçiləri seçki prosesinin nəticəsindən asılı olmayaraq, adətən, öz mənfi nəticələrini əvvəlcədən hazırlayırlar. Bir qayda olaraq, seçkilərin ertəsi səhər yekun elan edilir ki, orada seçkilər qeyri-demokratik kimi tanınmalıdır. Eyni şey Özbəkistan, Qazaxıstan və bir çox digər postsovet ölkələrində də olub. Azərbaycanda da. İndi də oxşar vəziyyətin olacağına və artıq "dəhşət hekayəsi"nin hazırlandığına şübhəm yoxdur.

Üstəlik, mən Qərb müşahidəçiləri ilə danışdım və soruşdum: "Mənə deyin, siz ki, bir dənə də olsun pozuntu tapmadınız. Yaxşı, qeyri-demokratik seçkilər haradadır?" Fakt yoxdur. Amma konkret heç nəyə cavab verə bilmirlər. Bu gün AŞPA ilə bağlı danışdıqlarımız seçki müşahidəsinə də aiddir. Və Azərbaycan Avropa Şurası Parlament Assambleyasının nümayəndələrini seçkilərə dəvət etməməklə düzgün addım atdı. Onların qarşısında hamımızın geri çəkilməsinə ehtiyac yoxdur. Onlar Rusiya və Azərbaycanla münasibətdə çoxdan özlərini belə mövqeləndiriblər. Və bütün bu hekayənin Azərbaycanın münaqişəni hərbi yolla həll etməsi ilə heç bir əlaqəsi yoxdur. Onlar sadəcə olaraq ölkələrin nəzarətçisi olmaq istəyirlər. Və bu cəhdlər nəticə vermədikdə, əsəbiləşirlər. Biz buna diqqət yetirməyi dayandırmalıyıq. Sonra özləri səndən bir yerə gəlməyini xahiş edəcəklər".

***Tərcümə - Elçin Bayramlı***

# Vətən haradan başlayır?

***Hamımızın anadangəlmə, yaradılışdan bir vətəni olur - doğulduğu, böyüdüyü, son nəfəsini aldıqdan sonra əbədi yuxuya getdiyi torpaqlar. Hamımız sevincimizi, kədərimizi o torpaqda yaşayırıq, dərdimizi onunla bölüşür, sevincimizi onunla paylaşır, ruzimizi ondan alırıq. İnsanlar öz kökünü, bir millətə mənsubluq hissini adına vətən dediyimiz torpaqlarda qazanır.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*











Ona görə də insanlar dünyaya gələndən ölənədək vətən üçün yaşayır, vətən üçün çalışırlar. Müharibələr vətən üçün baş verir, qələbələr vətən üçün qazanılır. Vətən sevgisi ata mirası kimi nəsildən nəsilə ötürülür, vətən sevdası beləcə müqəddəsləşir.

Vətən sevgisini dərk etmək üçün ilk növbədə "Vətən nədir?" sualına cavab tapmaq lazımdır. Bu suala keçmişdən bu günə bir çox insanlar tərəfindən müxtəlif cavablar verilib, bir çox dahi bununla bağlı müdrik kəlamlar deyib. Əslində, vətən anlayışı hər kəs üçün fərqli mənalar kəsb edə bilər, lakin bütün yollar bir nəticəyə gətirib çıxarır – Vətən müqəddəsdir.

"Torpaq, uğrunda ölən varsa, vətəndir" deyilməyib boşuna. Bir parça torpağı vətən edən odur ki, onun uğrunda canını fəda edə bilən insanlar var. Ona görə də uğrunda canının verilə biləcəyi torpaqları vətən kimi ifadə etmək olar. Bununla belə, "Vətən nədir?" suala veriləcək cavablar bunlarla məhdudlaşmır. Vətən hər şeydən əvvəl bir xalq üçün müstəqillik, suverenlik rəmzidir. Çünki heç bir xalq düşmən tapdağı altında olan torpaqda yaşamaq istəmir və yaşaya bilməz. Əslində, vətən elə torpaqdır ki, onu düşmən boyunduruğunda saxlamaq olmaz. Vətən bizim ümumi evimizdir və o evin sahibi yadlar ola bilməz.

Vətən sevgisini mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız bayrağı, danışdığımız dili, həm yaşayıb, həm də yaşatdığımız mədəniyyəti sevmək kimi izah etmək olar.

Əslində, vətən sevgisi sırf sözlə ifadə oluna bilməyəcək bir hissdir. Vətənini sevən hər bir vətəndaş vətəninin şöhrətini yüksəltmək arzusunda olmalı və bu yolda çalışmalıdır. Yəni vətən sevgisi doğma yurdumuzda əmin-amanlıq, firavanlıq, əmin-amanlıq, sabitlik şəraitində yaşamaq üçün çalışmaq tələb edir.

Vətənpərvərlik təkcə indiki zamana dair hiss və düşüncələrimizlə deyil, həm də gələcək üçün hisslərimiz, ideallarımız və məsuliyyətlərimizlə əlaqəli bir anlayışdır. Bu kontekstdə gələcək nəsillərə miras qoyacağımız vətən sevgisi, onlarda vətən sevgisini aşılamaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də vətən sevgisi təkcə keçmişdə yaşamış əcdadlarımıza, bu torpaqlar uğrunda vuruşmuş görkəmli Azərbaycan sərkərdələrinə, Vətən müharibələrində şəhid olmuş oğullara minnətdarlıq borcu deyil, həm də gələcəkdə vətənin əmanət ediləcəyi gənclərə qalmalı olan müqəddəs bir mirasdır.

Qəlbi vətən sevgisi ilə dolu olan insanlar vətəninə, millətinə faydalı olmaq arzusu ilə özlərini inkişaf etdirir, peşəsini mükəmməl şəkildə icra edir. Vətənini, millətini sevən insanların qəlblərindəki sevgi bəşəriyyət üçün faydalı olmağı prioritet edir. Əslində, vətənini sevən bir insan dünyanı sevir, ölkəsində sülh olmağını istəyən insanlar dünyada sülhü arzulayır. Azərbaycanın şanlı tarixinin vətən sevgisi ilə dolu insanların göstərdiyi qəhrəmanlıq və fədakarlıqlarla zəngin olması da bizim şansımızdır. Əsrlər boyu bu torpaqlarda yaşayan insanların bir idealı olub, o da vətən sevgisi. Tariximiz boyu yadellilərə qarşı döyüşən böyük sərkərdələrin yolu ilə addımlayan qəhrəman Azərbaycan xalqı üçün vətənpərvərlik həyat tərzinə çevrilib.

Qəlbi vətən sevgisi ilə dolu olan xalqımızın fədakar övladları yüz illər əvvəl olduğu kimi bu gün də vətənlərini qorumaq üçün hər cür fədakarlıq edirlər. I və II Qarabağ müharibələrində qəhrəmanlıq edən, şücaət göstərən, şəhidlik zirvəsinə yüksələn oğullarımızı da bu yola vətən sevgisi, yurd sevdası sövq etdi.

Nəticə etibarı ilə vətən sevgisi, xəmirində müqəddəslik və mənəviyyat olan xüsusi bir məfhumdur. Mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız üçrəngli bayrağı, danışdığımız dili qorumaq üçün hər birimiz səfərbərik. Minillərin sınağından keçən vətənpərvərliyimiz bizim həyat tərzimiz, yaşam standartımızdır. Buna görə də qloballaşan dünyada, dəyərlərin, mənəviyyatın getdikcə yox çıxdığı cahanda gələcək nəsillərin bu ruhda yetişdirilməsi vətənpərvərliyin tələbidir. Unutmaq olmaz ki, qəlbi vətən sevgisi ilə dolu olan insanlar təkcə öz ölkəsi üçün deyil, həm də dünya üçün faydalıdırlar.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
30 yanvar
2024-cü il

# Alimentin miqdarı necə müəyyən olunur?

***İcra sənədindəki tələbin üzrsüz səbəbdən icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə icra edilməməsinə və ya icra məmurunun məhkəmə və ya başqa dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar digər qanuni tələblərinin yerinə yetirilməməsinə görə - fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Turan Abdullazadə deyib. Vəkil bildirib ki, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur: "Vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.***



VƏKİL MÜNASİBƏT BİLDİRDİ



Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərarını qərəzli olaraq icra etməyən şəxslər və həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə zamanı iki min manatdan dörd min manatadək cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

Aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay uşağa görə qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi; uşağa görə qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi; 3 və daha çox uşağa görə qazancın (başqa gəlirlərin) yarısı miqdarında aliment tutulur. Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Ailə Məcəlləsinə əsasən, aliment verməyə borclu olan valideynin qazancı qeyri-müntəzəm, dəyişən olarsa, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilə bilər. Sabit pul məbləğinin miqdarı isə qanunla müəyyən edilir: Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında AR Qanununa görə, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, UŞAQLAR üçün 235 manat məbləğində müəyyən edilir: "2024 cü il üçün sabit pul məbləğində alimentin maksimum tutula bilən məbləği 235 manatdır. 2025-ci ildə isə bu məbləğ arta bilər. 2023-cü ildə ildə 220 manat olub. Hazırda 235 manatdır. İldən ilə artır".

"Qanunvericiliyə əsasən valideynlər uşaqlarını saxlamağa borcludurlar. Aliment uşaqların saxlanılması üçün hər ay valideynlərdən tutulan pul məbləğidir və uşaqların saxlanılması, maddi ehtiyaclarının ödənilməsi məqsədi daşıyır" - deyə vəkil əlavə edib.

***Söylü Ağazadə***

## Çağlar Söyüncü rəsmən "Fənərbaxça"da

"Atletiko"nun futbolçusu Çağlar Söyüncünün "Fənərbaxça"ya keçidi rəsmiləşib. İstanbul klubunun rəsmi açıqlamasında deyilir ki, 27 yaşlı mərkəz müdafiəçisi mövsümün ikinci yarısını icarə əsasında İstanbul klubunda keçirəcək. Türkiyə milli komandasının üzvü yeni komandasında 2 nömrəli formanı geyinəcək.

Qeyd edək ki, Çağlar Söyüncü "Atletiko"ya mövsümün əvvəlində keçib. O, Madrid təmsilçisinin heyətində 9 rəsmi matçda meydana çıxıb.





## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu xəstəliklər zamanı antibiotik istifadə etmək olmaz

Antibiotiklər yararlı olduğu qədər də zərərli dərmanlardır. Bir çox hallarda bu dərmanların əks təsirləri olduğu da görünür. SİA mövzu ilə bağlı Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyevə müraciət edib. Onun sözlərinə görə, antibiotiklər — bakteriyaların inkişafını dayandıran və ya onları məhv edən kimyəvi maddələrdir: "Məhz buna görə antibiotikləri qrip, qızılca, məxmərək, epidemik parotit, A, B, C hepatitləri və s. virus mənşəli xəstəliklər zamanı tətbiq etmək olmaz. Bu faydadan çox zərər verə bilər. Antibiotiklər immun hüceyrələrin iş qabiliyyətini aşağı salaraq immun sistemi zəiflədir, xəstəliklərin sağalmasını gecikdirir".




EKSPERT XƏBƏRDARLIQ ETDİ

Ekspert bildirib ki, eyni zamanda bəzi antibiotiklər qaraciyərə, bəziləri də böyrəklərə ciddi zərər verə bilər: "Antibiotiklərin nəzarətsiz istifadəsi bağırsaq florasında da ciddi pozulmalara gətirib çıxarda bilər. Antibiotiklər istifadə zamanı mütləq şəkildə ailə həkiminizə bildirin, həkim tövsiyəsi olmadan antibiotiklərdən istifadə etməyin".

***Rəşid Qarayev***

## Tramp məhkəmədə jurnalistə uduzdu - 83 milyon avro ödəyəcək!

***ABŞ-ın keçmiş prezidenti Donald Trampın başı məhkəmə qalmaqallarından ayılmır. İndi də Nyu-York məhkəməsi köşə yazarı və yazıçı Elizabet Cin Karrollun eks prezidentə qarşı böhtan iddiasını təmin edib. qərara əsasən siyasətçi qarşı tərəfə 83,3 milyon dollar ödəməlidir.***

Karroll Trampı təcavüzdə günahlandırdıqdan sonra o, qarşı tərəfi yalan danışmaqda ittiham edib. Buna görə də jurnalist Trampı məhkəməyə verib. Siyasətçi köşə yazarının reputasiyasına dəyən ziyana görə 11 milyon dollar, mənəvi zərərə görə 7,3 milyon dollar və cəza təzminatına görə 65 milyon dollar ödəməlidir. Eks-prezident məhkəmənin qərarından apellyasiya şikayəti vermək niyyətindədir.




Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700